"AZƏRİTTİFAQ"
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

KOOPERASİYA

elmi-praktiki jurnal

№1 (80)-2026

İSSN 2218-91-49

“Kooperasiya” elmi-praktiki jurnal

Научно-практический журнал “Кооперация”

Scientific-practical journal “Cooperation”

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 1 (80)-2026

TƏSİSÇİ: AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

Redaksiya heyəti:

i.e.d., prof. Eldar QULİYEV **(baş redaktor)**
i.e.d., prof., Əməkdar elm xadimi, Bəyalı ATAŞOV
(baş redaktorun müavini)
i.e.n., dos. Samirə MƏMMƏDOVA **(məsul redaktor)**
i.e.d., prof. AMEA-nın həqiqi üzvü Ziyad SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü Əli NURİYEV
i.e.d., prof. Eldar İBRAHİMOV
i.e.d., prof. Vüsal QASIMLI
i.e.d., prof. Zahid MƏMMƏDOV
i.e.d., prof. Rəsul BALAYEV
i.e.d., prof. Aygün QULİYEVA
i.e.d., prof. İslam İBRAHİMOV
i.e.d., prof. Şəfa ƏLİYEV
i.e.d., prof. Murad TAĞIYEV
f.e.d., prof. Müslüm NƏZƏROV
i.e.d., prof. Rəsmiyyə ABDULLAYEVA
i.e.d., prof. Möhübbət HÜSEYNOV
i.e.n., dos. Tahir ŞÜKÜROV
i.e.d., prof. Müslüm İBRAHİMOV
(Almaniya Federativ Respublikası)
i.e.d., prof. Aleksandr TKAÇ
(Rusiya Federasiyası)
Dr. Pr. Mustafa EMEK
(Türkiyə Cümhuriyyəti)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.

2023-cü ilin 4-cü nömrəsindən başlayaraq jurnala Rəqəmsal Obyekt İdentifikatoru (DOİ) verilmişdir.

Redaksiyanın ünvanı:
AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 93.
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: aku1964@mail.ru
info@aku.edu.az
web: www.aku.edu.az

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.
Tirajı 300 ədəd

Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU
Kompüter və dizayn: Hacı İSMAYILOV

MÜNDƏRİCAT

I BÖLMƏ
MALİYYƏ MÜNASİBƏTLƏRİ, İNVESTİSİYA

Emin Rahib oğlu KAZIMOV
Müəssisənin maliyyə sabitliyinin təhlili və qiymətləndirilməsi onun fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi vasitəsi kimi.....5
https://doi.org/10.30546/4.71.73001.2026.005.001

Aina Vaxub qızı ZEİNALOVA, Azər Balabəy oğlu MAZANOV
Şərabçılıq sektorunda maliyyə hesabatlarının inkişafi: təkmilləşdirmə yolları və strategiyaları.....12
https://doi.org/10.30546/4.71.73001.2026.005.003

Rahibə Xəlil qızı ƏBDÜLHƏSƏNOVA
“Yaşıl” iqtisadiyyata keçidi təmin edən investisiyalaşma prosesində beynəlxalq təcrübənin konseptual problemləri 20
https://doi.org/10.30546/4.71.73001.2026.005.006

Kənan Nüsrət oğlu ATAYEV
Daxili nəzarət sistemlərinin rəqəmsal bankçılığa inteqrasiyası.....30
https://doi.org/10.30546/4.71.73001.2026.005.010

Günay Əziz qızı MİRZƏYEVA, Kifayət Aslan qızı XUDAVERDİYEVA
Müasir şəraitdə uzunmüddətli aktivlərin uçot problemləri.....39
https://doi.org/10.30546/4.71.73001.2026.005.012

İbrahim Ziyad oğlu ƏLİYEV
Dövlət satınalmalarında müasir problemlərin təhlili 47
https://doi.org/10.30546/4.71.73001.2026.005.016

II BÖLMƏ
AQRAR SAHƏNİN İNKİŞAFI, İSTEHLAK BAZARI, SÜNİ İNTELLEKT VƏ RƏQƏMSALLAŞDIRMA

Nizami Cəlal oğlu QAFAROV
Azərbaycanın aqrar istehlak bazarı: reallıqlar, problemlər və həlli yolları 56
https://doi.org/10.30546/4.71.73001.2026.005.021

Əli Əkbər oğlu QOCAYEV
Aqrar sahənin inkişafında iqtisadi amillərin qarşılıqlı təsir mexanizmləri.....65
https://doi.org/10.30546/4.71.73001.2026.005.025

Faruq Həmzə oğlu ZİYADOV
Kənd təsərrüfatı emalı müəssisələrində investisiya siyasətinin innovativ modernləşdirilməsi.....74
https://doi.org/10.30546/4.71.73001.2026.005.028

Gülsüm Şamil qızı BƏDİRZADƏ
Azərbaycanın rəqəmsal iqtisadiyyatının müasir vəziyyəti və inkişaf perspektivləri.....81
https://doi.org/10.30546/4.71.73001.2026.005.032

Pərvin Saləddin qızı CƏFƏRLİ
İstehlakçı tələbi və təklif tarazlığı: istehlakçı qiymətləri indeksindən asılılıq 89
https://doi.org/10.30546/4.71.73001.2026.005.034

Aslan Cavid oğlu ƏZİMZADƏ
Azərbaycanda istehlak və yığım arasındakı makroproporsionallığın təhlili 96
https://doi.org/10.30546/4.71.73001.2026.005.039

Şövkət Abuzər qızı YUSUFOVA
Aqrar sahədə süni intellektin tətbiqi və onun perspektivləri 106
https://doi.org/10.30546/4.71.73001.2026.005.043

Leyla Elxan qızı HACIYEVA
Azərbaycanda kənd təsərrüfatının rəqəmsallaşması.....114
https://doi.org/10.30546/4.71.73001.2026.005.049

Sadig Sarvan ISAYEV
Prospects of using artificial intelligence in logistics 122
https://doi.org/10.30546/4.71.73001.2026.005.054

III BÖLMƏ
EKOLOGİYA PROBLEMLƏRİ, REGİONAL İNTEQRASİYA VƏ RƏQABƏT AMİLİ

Şəfəq Hüseyn qızı ABDULLAYEVA
Ətraf mühitin ekoloji problemləri və onların elmi həlli 131
https://doi.org/10.30546/4.71.73001.2026.005.057

Kəmalə Xəlil qızı YUSİFOVA
"Yaşıl iqtisadiyyat" və onun iqtisadi inkişafa təsiri 139
https://doi.org/10.30546/4.71.73001.2026.005.059

Türkan Namiq qızı EYUBOVA
İpək Yolu kontekstində Azərbaycanın regional inteqrasiyası və iqtisadi inkişaf perspektivləri 146
https://doi.org/10.30546/4.71.73001.2026.005.060

Lamiyə Əskər qızı AZADLI, Ədalət Məhyəddin oğlu ƏSƏDOV
Biznes subyektlərinin dayanıqlı inkişafında rəqabət amilinin nəzəri və praktik aspektləri 155
https://doi.org/10.30546/4.71.73001.2026.005.062

Həsən Valeh oğlu HƏSƏNZADƏ
Qeyri-neft sənayesində korporativ idarəetmə modellərinin transformasiyası: beynəlxalq yanaşmalar və nəzəri əsaslar.....165
https://doi.org/10.30546/4.71.73001.2026.005.064

IV BÖLMƏ
İNSAN RESURSALARININ İDARƏ EDİLMƏSİ, TURİZMİN İNKİŞAFI

Günay Oktay qızı ƏLİYEVA
Rəqabət üstünlüyünə nail olmaq üçün insan kapitalının resurs kimi idarə edilməsi.....174
https://doi.org/10.30546/4.71.73001.2026.005.067

Səxavət Tofiq qızı MƏMMƏDOVA
Müəssisələrdə insan resurslarının idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri 183
https://doi.org/10.30546/4.71.73001.2026.005.069

Rasim Zaur GULIYEV
Conceptual dimensions of motivational challenges within the framework of human resources management.....193
https://doi.org/10.30546/4.71.73001.2026.005.071

Həmid Azər oğlu MUSTAFAYEV, Firuzə Qaraxan qızı ABBASOVA
Azərbaycanda otel xidmətlərinin keyfiyyəti və beynəlxalq standartlara inteqrasiya məsələləri.....201
https://doi.org/10.30546/4.71.73001.2026.005.074

Turan Arzu oğlu HƏSƏNLİ
Müasir turizm fəaliyyətində risklərin xüsusiyyətləri və onların idarə edilməsinə yanaşmalar ...208
https://doi.org/10.30546/4.71.73001.2026.005.077

I BÖLMƏ
MALİYYƏ MÜNASİBƏTLƏRİ, İNVESTİSİYA

UOT 336

Emin Rahib oğlu KAZIMOV
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı
E-mail: eminkazimov044@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2026.005.001

MÜƏSSİSƏNİN MALİYYƏ SABİTLİYİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ONUN FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

Xülasə

Tədqiqatın məqsədi – şirkətin fəaliyyətinin nəticələrinə əsaslanan maliyyə hesabatları əsasında müəyyən olunmuş əmsal göstəriciləri sistemini təhlil etmək, reytinq qiymətləndirmə metodu, müflisləşmə ehtimalının qiymətləndirilməsi əsasında respublikanın iqtisadi subyektlərində maliyyə sabitliyinin müasir vəziyyətini qiymətləndirmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir.

Tədqiqatın metodologiyası – sistemli yanaşma, fundamental təhlil və adekvat informasiya.

Tədqiqatın tətbiqi əhəmiyyəti – iqtisadi subyektlərdə maliyyə davamlılığının təhlili prosesində elmi-nəzəri mənbə qismində istifadə imkanları.

Tədqiqatın nəticələri – müasir şəraitdə respublikanın iqtisadi subyektlərində maliyyə sabitliyinin təhlilinin inkişafı istiqamətləri qiymətləndirilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Azərbaycanda maliyyə sabitliyinin təhlili metodologiyasının və metodikasının təkmilləşdirilməsi.

Açar sözlər: maliyyə sabitliyi, ödəmə qabiliyyəti, maliyyə dayanıqlığının qiymətləndirilməsi, reytinq qiymətləndirmə.

Giriş

Maliyyə sabitliyi – mütəmadi olaraq müəssisənin gəlirlərinin onun xərclərindən artıq olmasını, pul vəsaitlərinin sərbəst manevrliyini və məhsul istehsalı və satışı prosesində onlardan səmərəli istifadəni səciyyələndirir. Məsələyə bu aspektdən yanaşaraq qeyd etmək olar ki, təsərrüfat subyektinin maliyyə sabitliyi onun bütün fəaliyyəti prosesində formalaşır və müəssisənin ümumi sabitliyinin əsas komponenti hesab edilir.

Maliyyə sabitliyi müəssisənin pul vəsaitlərindən səmərəli istifadə etməklə istehsal və satış prosesinin fasiləsizliyini, eləcə də, minimum və ya sabit məsrəflərlə istehsalın genişləndirilməsini təmin edəcək həcmdə maliyyə resursunun mövcud olmasıdır. Hazırda mühüm problemlərdən biri müəssisənin maliyyə sabitliyinin həddinin müəyyən edilməsidir. Belə ki, müəssisənin maliyyə dayanıqlığının lazımi səviyyədə olmaması onun fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi üçün vəsaitin çatışmazlığı, ödəmə qabiliyyətinin itirilməsi, beləliklə də, müəssisənin müflisləşməsilə nəticələnə bilər [1, s.58; 2, s.232-233]. Eyni zamanda, maliyyə resurslarının artıqlığı müəssisədə lüzumsuz ehtiyatların yaradılmasına, artıq məsrəflərə səbəb olur və onun fəaliyyət miqyasının genişləndirilməsinə mane olur. Vurğulamaq yerinə düşər ki, təsərrüfat subyektinin maliyyə sabitliyini qiymətləndirmək üçün onun maliyyə vəziyyətinin kompleks qiymətləndirilməsinin həyata keçirilməsi zəruridir. Qeyd etmək lazımdır ki, maliyyə vəziyyəti maliyyə resurslarının mövcudluğunu, onların düzgün yerləşdirilməsi və istifadəsini əks etdirən göstəricilərin məcmusunu ifadə edir.

Maliyyə sabitliyi anlayışı və onun iqtisadi məzmunu

Maliyyə sabitliyi göstəricisi müasir bazar şəraitində şirkətin maliyyə-təsərrüfat fəaliyyətini xarakterizə edən aparıcı göstəricilərdən biri hesab olunur. Müəssisənin maliyyə sabitliyinə müxtəlif amillər təsir göstərir:

- əmtəə bazarında müəssisənin vəziyyəti;
- geniş tələbata malik ucuz mallar istehsal etməsi;
- işgüzar əməkdaşlıqda müəssisənin potensialı;
- xarici investor və kreditorlardan maliyyə asılılığı səviyyəsi;
- ödəmə qabiliyyəti olmayan debitorların mövcudluğu;
- təsərrüfat və maliyyə əməliyyatlarının səmərəliliyi və s. [2, s.59].

Maliyyə dayanıqlığına malik təşkilatlar digər təşkilatlarla müqayisədə investisiya resurslarının və borc vəsaitlərinin cəlb olunması, eləcə də, malgöndərənlərlə və digər kontragentlərlə iş zamanı seçmək imkanı baxımından böyük üstünlüklərə malikdir. Xüsusi ədəbiyyatlarda maliyyə sabitliyinin müəyyən olunmasında istifadə olunan maliyyə əmsallarına münasibətdə fərqli yanaşmalara rast gəlinir. Belə ki, aparıcı rus iqtisadçısı Q.V.Savitskaya hesab edir ki, şirkətin maliyyə-iqtisadi vəziyyəti, müvafiq olaraq, onun maliyyə sabitliyi tənzimləyici vəsait mənbələri ilə təmin olunan material dövriyyə vəsaitlərinin kafiliyini səciyyələndirən göstəricilərlə müəyyən olunur və bura yalnız xüsusi dövriyyə kapitalı deyil, eləcə də, müəyyən dövrə şirkətin əmtəə-material qiymətlilərinin tamamlanması üçün alınmış bankın borc vəsaitləri, mal göndərənlərə normalaşdırılmış kreditor borcları, xidmət və mallara görə alıcıların uçota alınmış avansları da daxil edilir. O, maliyyə vəsaiti mənbələrinin həcmi ilə material dövriyyə aktivlərinin həcminin müqayisə olunması yolu ilə hesablanır [10].

Bir qrup iqtisadçılar belə hesab edirlər ki, şirkətin maliyyə sabitliyi bazar dəyişikliklərinin və kontragentlərin gözlənilməz davranışının təsirinə cavab verəcək stabil ödəmə qabiliyyətini xarakterizə edir. Şirkətin maliyyə sabitliyinin qiymətləndirilməsi likvidlik əmsalı, örtülmə əmsalı, cari likvidlik parametri əsasında aparıla bilər [5]. Şirkətin maliyyə sabitliyi bir tərəfdən özünün xüsusi vəsaitləri hesabına, digər tərəfdən cəlb edilmiş vəsait hesabına maliyyə balansının saxlanması nəzərə alınmaqla ödəmə qabiliyyətinin gözlənilməsidir. Şirkətin maliyyə sabitliyi elə bir qaydanı nəzərdə tutur ki, bu zaman istehsal prosesinə yönəldilmiş cəlb olunmuş resurslar pul gəlirləri hesabına örtülür, əldə olunmuş mənfəət özünümaliyyələşdirmə vasitəsinə çevrilir ki, bu da şirkətin aktivlərin yaradılması üzrə kənar resurs mənbələrindən asılılığını azaldır [7].

Müəssisənin maliyyə sabitliyinin təhlili metodikası

Şirkətin maliyyə sabitliyinin müəyyən olunmasının birbaşa vəzifəsi ölkə və xarici mütəxəssislər tərəfindən tədqiq edilmişdir. Maliyyə sabitliyi anlayışının mahiyyəti üzrə vahid fikir formalaşmamışdır. Hazırda mövcud metodikaları üç qrupa bölmək olar: kəmiyyət qiymətləndirilməsi; keyfiyyət qiymətləndirilməsi; qeyri-maliyyə sabitliyinə malik təşkilatların bilavasitə qiymətləndirilməsi. Birinci qrupa aid metodikanın əsas məğzi təşkilkatın maliyyə sabitliyinin hansı növünə aid olmasını müəyyən etməkdir. Bu sahədə nəşr olunmuş ədəbiyyatlarda maliyyə sabitliyinin dörd tipi fərqləndirilir: mütləq, normal, qeyri-stabil və böhranlı (cədvəl 1) [11].

Bu zaman şirkətin maliyyə-təsərrüfat fəaliyyətinin yekun maliyyə nəticələrinə və istehsalın səmərəliliyi səviyyəsinə təsir göstərən, onun stabil fəaliyyət göstərməsi üçün zəmin formalaşdıran bütün maliyyə növləri arasında qarşılıqlı əlaqənin mövcudluğu nəzərə alınmalıdır. Əlbəttə, təşkilatlar özünün inkişafının bütün dövrlərində qeyd olunan bütün mərhələlərdən, yaxud bir və ya iki mərhələdən keçə bilər. Praktikada mütləq maliyyə sabitliyinə nadir hallarda rast gəlmək olar.

Şirkətin birbaşa ödəmə qabiliyyəti onun dərhal maliyyə sabitliyinə dair iki əsas qiymətləndirməni formalaşdırır [8]:

1. Mövcud resurslarla ehtiyat və xərclərin örtülməsi dərəcəsinə əsaslanan maliyyə sabitliyinin xarakteristikası:

$$E \leq (X^V + K^r K^b) - Ə^v K$$

Cədvəl 1.

Müəssisənin maliyyə sabitliyinin tipologiyası

Maliyyə sabitliyinin növləri	Xrakteristikası	Əsas göstəricilərin nisbəti
Mütləq	Yüksək dərəcədə likvidlik və ödəmə qabiliyyətliliyi	Ehtiyat və xərclər < Xüsusi dövriyyə vəsaitləri
Normal	Ödəmə qabiliyyətliliyi təmin edir	Xüsusi dövriyyə vəsaitləri < Ehtiyat və xərclər < Xüsusi dövriyyə vəsaitləri + Uzunmüddətli passivlər
Qeyri-stabil maliyyə sabitliyi	Ödəmə qabiliyyətinin pozulması ilə müşayət olunur, lakin xüsusi vəsait mənbələrinin tamamlanması və borc vəsaitlərinin cəlb edilməsi hesabına tarazlığın bərpa olunması imkanının saxlanılması mümkündür	Xüsusi dövriyyə vəsaitləri + Uzunmüddətli passivlər < Ehtiyat və xərclər < Xüsusi dövriyyə vəsaitləri + Uzunmüddətli passivlər + Qısamüddətli kredit və borclar
Böhranlı (iflasdan əvvəl) maliyyə sabitliyi	Müflisləşməyə yaxındır, pul vəsaitləri, qısamüddətli qiymətli kağızlar və debitor borcları kreditor borclarını və ödəmə vaxtı ötüş ssudaları örtmür	Xüsusi dövriyyə vəsaitləri + Uzunmüddətli passivlər + Qısamüddətli kredit və borclar < Ehtiyat və xərclər

Burada, E – ehtiyatlar, X^V –xüsusi vəsaitlər, K^rK^b – uzunmüddətli kreditlər və borc kapitalı, $Ə^vK$ – əsas vəsaitlər və kapital.

2. Mövcud resurslarla əsas vəsaitlərin və digər qeyri-maddi aktivlərin örtülməsi dərəcəsinə əsaslanan maliyyə sabitliyinin xarakteristikası:

$$Ə^vK \leq (X^V + K^rK^b) - E$$

Burada, $X^V + K^rK^b$ – şirkətin kapitalının həcmidir.

Maliyyə sabitliyinin qiymətləndirilməsinə hər iki yanaşma sabitliyin aşağıdakı məlum düsturuna əsaslanır:

$$Ə^vK + E < (X^V + K^rK^b)$$

Beləliklə, belə fikir formalaşdırmaq olar ki, əsas vəsaitlərə və material, mal və xammal ehtiyatlarına yönəldilən kapitalın həcmi onun xüsusi kapitalından və ya ona aid edilən kapitalın həcmindən çox ola bilməz.

Maliyyə sabitliyi göstəricisi şirkətin inkişafının dinamikası haqqında təsəvvür yaratmır, növbəti hesabat dövrünə onun maliyyə sabitliyinin vəziyyətini proqnozlaşdırmağa imkan vermir, eləcə də, rəhbərlik üçün göstəricilərin lazımi diapozonda saxlanması ilə bağlı təkliflərin hazırlanması çətindir. Sözügedən məsələlər ayrı-ayrı təşkilat kəsiyində onun fəaliyyət istiqamətlərinin mövcud xüsusiyyətləri, aktivlərinin və passivlərinin strukturu nəzərə alınmaqla maliyyə sabitliyinin fərdi göstəricilərinin hesablanmasına əsaslanan kəmiyyət qiymətləndirilməsi metodları ilə həll olunur. Şirkətin maliyyə-iqtisadi sabitliyinin nəzərdən keçirilməsi və qiymətləndirilməsinin bilavasitə onun müəyyən əmsallar sistemi və maliyyə göstəriciləri əsasında (müxtəlif göstəricilərin qruplaşdırılması əsasında) həyata keçirilməsi məqsədəuyğundur.

Birinci qrupa müəssisənin maliyyə təminatının səmərəliliyini səciyyələndirən əmsallar (xüsusi ilə, dövriyyədə xüsusi kapitalın payı əmsalı) daxildir.

İkinci qrup göstəricilər bilavasitə şirkətin maliyyə dəstəyinin səmərəliliyini əks etdirir. O, maliyyə təminatının müstəqilliyi, maliyyə resurslarının manevrliyi, şirkətin dövriyyə aktivlərinin

tərkibində xüsusi kapitalın payı, ehtiyat və xərclərin strukturunda xüsusi maliyyə aktivlərinin kafiliyi, xüsusi və borc kapitalının nisbəti əmsalları, kreditor borclarının həcmi ilə xarakterizə olunur.

Üçüncü qrup göstəricilər şirkətin maliyyə təminatını səciyyələndirir, daha doğrusu, maliyyə vəziyyətinin sabitliyinin gün hesabı ilə ifadə olunan vaxt göstəricisi olmaqla ehtiyatların hər min manatına düşən dövriyyə vəsaitlərinin həcmini xarakterizə edir.

Dördüncü qrupa istehsal tsiklinin xüsusiyyətlərini xarakterizə edən əmsallar daxildir: bilavasitə istehsal prosesi üçün nəzərdə tutulmuş uzunmüddətli və qısamüddətli aktivlərin nisbəti.

Beşinci qrupa likvidlik göstəriciləri, eləcə də, kreditor qarşısında ödəmə vaxtı ötmüş borcların yaranması riskinin mövcudluğunu əks etdirən göstəricilər daxildir.

Yuxarıda qeyd olunan əmsalların dinamikada hesablanması şirkətin maliyyə sabitliyinin yüksəldilməsi üzrə qəbul olunan tədbirlərin səmərəliliyini artırmağa imkan verəcəkdir. Göstəricilərin sistemləşdirilməsi şirkətin maliyyə sabitliyinin fasiləsiz manitorinqinin aparılması üçün baza rolunu oynaya bilər.

Şirkətin maliyyə sabitliyinin qiymətləndirilməsi metodlarından biri də əsasını müəyyən göstəricilər təşkil edən reytinq qiymətləndirmə metodudur. Bu metodun metodiki əsasını maliyyə sabitliyi üzrə müxtəlif şirkətlərin reytinq əmsallarının, daha sonra, etalon müəssisənin oxşar göstəricisi ilə müqayisəsi təşkil edir [1, s.312-314; 2, s.96-101;]. Reytinq qiymətləndirmənin hesablanması üçün vaxt kəsiyində əmsalların artım tempi əmsallarından istifadə olunur [9]:

$$\frac{T_1}{T_0}$$

burada, T_0, T_1 – göstəricinin müvafiq olaraq dövrün əvvəlinə və sonuna kəmiyyəti.

Belə bir məsələni də vurğulamaq yerinə düşər ki, bəzi iqtisadçı alimlər şirkətin maliyyə vəziyyəti göstəriciləri istisna olmaqla maliyyə sabitliyi göstəricilərinin hesablanması və təhlili zamanı təşkilatın mümkün qeyri-maliyyə sabitliyinin qiymətləndirilməsi üzrə məsələlərə xüsusi diqqət yetirirlər. Belə ki, bir qrup iqtisadçılar şirkətin iflasının mümkünlüyünü qiymətləndirmək üçün ehtiyatların və daha likvid aktivlərin məcmu aktivlərə nisbəti göstəricisindən istifadəni tövsiyə edirlər və həmin əmsalın məqbul həddi sıfırdan böyük olmalıdır. Bu əmsalın yüksək olması şirkətin müflisləşmə prosesinin mümkünlüyünün aşağı olmasını göstərir [7].

Xarici mənbələrdə şirkətlən müflisləşməsi ehtimalının qiymətləndirilməsi məqsədi ilə çoxsaylı metodikalara rast gəlmək mümkündür. Bura təşkilatların mümkün müflisləşməsi və müflisləşməməsi üzrə təsnifləşdirilməsinə əsaslanan Altmann “Z-hesablama” modelini, J.Konan və M.Qolder metodikası, Qordon L.V. və Sprinqeyt, R.Taffler və Q.Tişou, Lis və digər modelləri aid etmək olar [1, s.375-376; 2, s.103-108; 6]. Dünya təcrübəsində təşkilatın ödəmə qabiliyyəti və maliyyə sabitliyinin qiymətləndirilməsi məqsədi ilə geniş istifadə olunan metodun tətbiqində xüsusi kapitaldan istifadənin rentabelliyinə təsir göstərən kredit resurslarından istifadəni səciyyələndirən leviric göstəricisindən istifadə olunur. Bu göstərici təşkilatın mənfəətinin artmasına nail olmaq üçün tələb olunan maliyyə resursları ilə əlaqələndirilir, uzunmüddətli öhdəliklərin həcmində və strukturunda dəyişikliklər nəticəsində mənfəətin artması potensialını əks etdirir.

Təşkilatın maliyyə sabitliyinə təsir göstərən prosesləri təhlil edərək aşağıdakıları qeyd etmək olar: əməliyyat mühitinin çevikliyi, innovativ layihələrin tətbiqi, böyük həcmli investisiya imkanı və mövcudluğu, yeni bazarların əldə olunması qabiliyyəti, həyta keçirilən xarici və daxili restrukturizasiya. Bütün bunlar təşkilatın maliyyə sabitliyinin artırılması məqsədi ilə yüksək riskli biznesproseslərin üç blokdan ibarət qiymətləndirmə metodikasının hazırlanması zamanı müəllif üçün baza rolunda istifadə olunub (şək.1).

Təşkilatın maliyyə sabitliyini artırmaq üçün istifadə olunan risklərin idarə olunması prinsipləri aşağıdakı şərtlər daxilində maliyyə göstəricilərinə düzəlişlər şəklində əks-əlaqənin həyata keçirilməsi ilə mövcud risklərin davamlı monitorinqini tələb edir:

- təşkilatın maliyyə sabitliyini artırmaq üçün risklərin birbaşa idarə edilməsi prosesinin reqlamentini tərtib etmək;

- təşkilatın maliyyə sabitliyini təmin etmək üçün mümkün risklər haqqında məlumatları təqdim etməklə cari nəzarətin həyata keçirilməsi;
- təşkilatın işində cari proseslərin formalaşdırılması üçün zəruri olan risklərin müəyyən edilməsi və təsnifləşdirilməsi;
- təşkilatın inkiçaf yolunu anlamaq üçün birbaşa risklərin qiymətləndirilməsinin aparılması;
- risklərin qiymətləndirilməsinin monitorinqi təşkilatın aktivlərinin keyfiyyətinə təsir edən cari və davamlı prosesdir;
- risklərin müəyyən olunması mexanizminin əhəmiyyətindən və onlara səbəb ola biləcək potensial problemlərdən asılı olaraq hazırlanmasına imkan verən balanslaşdırılmış və dəqiq risk qiymətləndirilməsi;



Şəkil 1. Təşkilatın maliyyə dayanıqlığının yüksəldilməsi üçün yüksəkriskli biznes proseslərin qiymətləndirilməsi metodikası

Mənbə: şəkil müəllif tərəfindən tərtib edilmişdir

- risk növünün müəyyən edilməsi və təşkilat üzrə birbaşa qiymətləndirilməsi üçün sistemli yanaşmanın tətbiqi.

Bütün bunlar təşkilatın həm kənar, həmçinin də daxili mühitində onun maliyyə sabitliyini dəyişdirə biləcək əsas hadisələri identifikasiya etməyə, qeyri-sabit və ya böhran vəziyyətinin yaranmasına səbəb olan amillərin sistemləşdirilməsi məqsədi ilə risklərin müəyyən edilməsi və sonrakı təhlili prosesinin unifikasiya olunmasına imkan verir, təşkilata xas olan risklərin tipologiyasının identifikasiyasını və aşkar edilməsini mümkün edən inkişaf məqsədlərinin xarakterini dərk edir. Təşkilatın maliyyə sabitliyinin qiymətləndirilməsinin nəzərdən keçirilən üsulları əyani olaraq göstərir ki, birinci qrup metodlar çərçivəsində maliyyə-iqtisadi stabilliyin keyfiyyət qiymətləndirilməsinə nail olmaq mümkündür ki, bütün bunlar təşkilatın ödəmə qabiliyyəti səviyyəsini əks etdirən maliyyə sabitliyinin xüsusiyyətlərinin əhəmiyyətli siyahısını təqdim edir. Müxtəlif vaxt kəsiyində təşkilatların müqayisəsinin mümkünsüzlüyü maliyyə sabitliyinin keyfiyyət xarakteristikasının çatışmazlığını göstərir. Maliyyə sabitliyinin kəmiyyət qiymətləndirməsinin aparılması vasitəsi ilə birinci qrupa daxil olan keyfiyyət metodlarının çatışmazlıqlarını aradan qaldırmaq olar. Mövcud olan kəmiyyət qiymətləndirmə metodlarının əsas mürəkkəbliyi təhlil olunan sahənin təşkilatları üçün xarakterik olan normal məhdudiyyətlərin qəbul edilməsidir.

Hazırda daha dəqiq nəticələr əldə etmək üçün maliyyə sabitliyinin qiymətləndirilməsinin müxtəlif metodlarının simbiozundan istifadə edilən hibrid üsullardan geniş istifadə olunur. Təşkilatda baş verən proseslərin səbəb-nəticə əlaqələrinin təhlilinin zəruriliyi hibrid yanaşmadan istifadənin məqsədini əks etdirir.

Nəticə

İqtisadi nəzəriyyə və praktikada bir-birindən istifadə olunan göstəricilər sistemi və hesablama metodları ilə fərqlənən, təşkilatın maliyyə dayanıqlığının müəyyən olunmasına istiqamətlənmiş geniş spektrli metodoloji tövsiyələr təklif olunur. Hesablamaların aparılması üçün vahid metodoloji yanaşmaların və nəzəri funksional əsasların olmaması, səbəb-nəticə göstəriciləri ilə əlaqəli hesablama və ya müəyyən olunan amilin yuxarı hədləri təyin olunmamış hesablamalar sisteminin tətbiqi, göstəricilər sisteminin qurulması parametrlərinin və prinsiplərinin tədqiqi və onların sonrakı hesablanması metodikasının olmaması onların əhəmiyyətli çatışmazlıqlarını səciyyələndirir.

Maliyyə dayanıqlığının qiymətləndirilməsi istənilən təşkilatın işinin tərkib hissəsidir. Bu istiqamətdə analitik göstəricilərin seçilməsi əsasən təşkilatın məqsədlərindən və vaxt məhdudiyyətlərindən asılıdır. Qeyd etmək lazımdır ki, əksər kiçik və orta sahibkarlıq subyektləri üçün qısamüddətli maliyyə sabitliyinin qiymətləndirilməsi üçün mütləq və nisbi göstəricilərdən istifadə olunması və inteqral göstəricinin hesablanması mühüm əhəmiyyət kəsb edir. Daha iri şirkətlərdə bu məsələnin qiymətləndirilməsi üçün amil, indeks təhlilindən və digər metodlardan istifadə edilməlidir. Eyni zamanda, uzunmüddətli perspektivə hadisələrin başvermə ehtimalı nəzərə alınmaqla proqnozlaşdırma metodlarından istifadə olunması məqsədəuyğundur. Bu, idarəetmə qərarlarının qəbul edilməsi üçün təşkilatın maliyyə vəziyyəti və onun maliyyə sabitliyi haqqında operativ informasiyanın əldə edilməsinə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Ələkbərov Ə., Cəfərli H.A. Maliyyə təhlili. Dərslik. – Bakı. UNEC. 2025
2. Müslümov S.Y., Kazımov R.N. Maliyyə təhlili. Dərslik. – Bakı, CBS, 2011
3. Quliyev V.M., Fətullayev R., Kərimov A.M. “Beynəlxalq mühasibatlığa giriş”., (GAAP və IFRS əsasında). Beynəlxalq uçot və hesabatı sərbəst şəkildə öyrənmək istəyənlər üçün vəsait, Bakı. İATM. 2021
4. Salahov Ə.S., Mehdiyev V.M. Mühasibat uçotu. Dərslik. – Bakı, “3 saylı Bakı Mətbəəsi”. 2016
5. Абрютина М.С., Грачев А.В. Анализ хозяйственной деятельности предприятия: учебник. – М.: 2017
6. Жукова Т.М., Кондратьева К.С. Современные особенности применения экономических моделей диагностики вероятности наступления банкротства юридических лий //Вестник Пермского Университета. Юридические науки. – 2014. - №1. – с.197-205
7. Ковалев В.В. Финансовый анализ: Управление капиталом. Выбор инвестиций. Анализ отчетности. – М.: Финансы и статистика, 2015
8. Липчанская К.Ю., Байгулова О.В. Алгоритм оценки финансовой устойчивости компании при определении ее инвестиционной привлекательности //Наука и образование: хозяйство и экономика; предпринимательство; право и управление. – 2019. – №1. – с.41-45
9. Полухина И.В., Сиверина Ю.Л. Анализ типов финансовой устойчивости организации и характеристика подходов к ее оценке // Апрельские научные чтения проф. Л.Т.Гиляровской: материалы VII Междунар.науч.-практ.конф. – 2018, – с.261-266
10. Савицкая Г.В. Анализ хозяйственной деятельности предприятия: учебник. – Минск: РИПО. 2019
11. Шеремет А.Д., Сайфулин Р.С. Методика финансового анализа: учебное пособие. – М.: ИНФРА-М. 2017

Эмин Рагиб оглы Казимов
Докторант
Азербайджанский Государственный Экономический Университет

Анализ и оценка финансовой стабильности предприятий как средство повышения его эффективнсти

Резюме

Целью исследования является оценка современного состояния финансовой стабильности в экономических субъектах республики и определение направлений ее совершенствования на основе анализа системы коэффицентных показателей, определяемых на основе финансовой отчетности по результататм деятельности компании, метод рейтинговой оценки, оценка вероятности банкродства.

Методология исследования – системный подход, фундаментальный анализ и адекватная информация.

Прикладное значение – возможности использования в качестве научно-теоретического источника в процессе анализа финансовой стабильности субъектов экономики.

Результаты исследования – были оценены направления развития методики анализа финансовой устойчивости экономических субьектов республики в современных условиях.

Оригинальность и научная новизна исследования – Совершенствование методологии и метотдики анализа финансовой стабильности в Азербайджане.

Ключевые слова: финансовая стабильность, платежеспособность, оценка финансовой устойчивости, оценка рейтинга.

Emin Rahib Kazimov
Ph.D student at the Azerbaijan State University of Economics

Analysis and assessment of the financial stability of an enterprise as a means of improving the efficiency of its activities

Summary

The purpose of the study is - to assess the current state of financial stability in the economic entities of the republic and identify directions for its improvement, based on the analysis of the system of coefficient indicators determined on the basis of financial statements based on the results of the companies activities, the rating assessment method, and the assessment of the probability of bankruptcy.

The methodology of the research – a systematic approach, fundamental analysis and adeguate information.

The practical importance of the research – the possibility of using it as a scientific and the operetical source in the process of analyzing financial sustainability in economic entities.

The results of the research – the development directions of financial stability analysis in economic entities of the republic in modern conditions were assessed.

The originality and scientific novelty of the research – improvement of the methodology and techniques of financial stability analysis in Azerbaijan.

Key words: financial stability, solvency, assessment of financial sustainability, rating assessment.

UOT. 336

Aina Vaxub qızı ZEİNALOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
e-poçt: ayna-zeynalova@mail.ru
Elmi rəhbər: Azər Balabəy oğlu MAZANOV
https://doi.org/10.30546/4.71.73001.2026.005.003

ŞƏRABÇILIQ SEKTORUNDA MALİYYƏ HESABATLARININ İNKİŞAFI: TƏKMİLLƏŞDİRMƏ YOLLARI VƏ STRATEGİYALARI

Xülasə

Tədqiqatın məqsədi – Şərabçılıq sektorunda maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün müxtəlif istiqamətləri və strateji tədbirləri araşdırmaqdır.

Tədqiqatın metodologiyası - Bu tədqiqatın metodologiyası, şərabçılıq sektorunda maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün mövcud praktikalara dair təhlil və beynəlxalq maliyyə hesabatları standartlarının tətbiqi ilə əlaqəli strategiyaların araşdırılmasına əsaslanır**.**

Tədqiqatın tətbiqi əhəmiyyəti – Tədqiqatın tətbiqi əhəmiyyəti, şərabçılıq sektorunda maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün praktik yanaşmalar və strategiyaların müəyyən edilməsi, sektorun maliyyə şəffaflığını artırmağa, investorları cəlb etməyə və qlobal bazarda rəqabət qabiliyyətini gücləndirməyə kömək etməsidir.

Tədqiqatın nəticələri – Şərabçılıq sektorunda maliyyə hesabatlarının təkmilləşdirilməsi, yalnız maliyyə göstəricilərinin doğruluğunu artırmaqla deyil, həm də sektorda şəffaflıq, dayanıqlı inkişaf və sosial məsuliyyətin daha geniş yayılmasına kömək edir. Təkmilləşdirilmiş maliyyə hesabatları şərabçılıq müəssisələrinin maliyyə resurslarını daha effektiv idarə etmələrini təmin edir, həmçinin qlobal bazarlarda daha uğurlu olmalarına şərait yaradır. Bu yanaşmalar sektorun uzunmüddətli inkişafını təmin edəcək və daha geniş iqtisadi faydalar yaradacaqdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Sektorda bu sahədəki mövcud boşluqların və problemlərin ilk dəfə geniş şəkildə araşdırılmasından ibarətdir. Tədqiqat, sektorda şəffaflığın artırılması və daxili idarəetmə proseslərinin optimallaşdırılması üçün innovativ yanaşmalar təqdim edir.

Açar sözlər: şərabçılıq, maliyyə hesabatları, təkmilləşdirmə, şəffaflıq, beynəlxalq maliyyə standartları, maliyyə idarəetməsi, daxili nəzarət, investorlar, rəqabət qabiliyyəti, dayanıqlı inkişaf.

Giriş

Şərabçılıq sektoru dünya iqtisadiyyatında mühüm yer tutan və eyni zamanda uzun bir tarixə sahib olan bir sahədir. Bu sahə yalnız istehsal və ticarətlə məhdudlaşmayıb, həm də ölkələrin mədəni və iqtisadi inkişafına mühüm töhfələr verir. Şərab istehsalı və ticarəti, xüsusilə Fransa, İtaliya, İspaniya və yeni şərab istehsalçı ölkələrdə iqtisadiyyatın mühüm tərkib hissəsidir. Qlobal şərab bazarı təxminən 300 milyard ABŞ dolları dəyərindədir və bu rəqəm hər il artmaqdadır. Şərabçılıq, həmçinin iş yerləri yaradaraq, bir çox ölkədə məşğulluğa təsir edir.

Maliyyə hesabatlılığı isə şərabçılıq sənayesinin düzgün idarə olunmasında mühüm rol oynayır. Bu sahədə maliyyə məlumatlarının dəqiq və şəffaf olması, yalnız şirkətlərin daxili qərarlarının verilməsi üçün deyil, həm də investorlar, maliyyə analitikləri və digər maraqlı tərəflər üçün vacibdir. Şərabçılıq sektoru, xüsusən kiçik və orta ölçülü müəssisələr üçün maliyyə hesabatlarının düzgün şəkildə hazırlanması və təqdim edilməsi baxımından çətinliklərlə qarşılaşır. Bu sahədə olan müəssisələrin əksəriyyəti adətən ənənəvi maliyyə hesabatı üsullarına riayət edir, lakin son illərdə müasir texnologiyaların tətbiqi və beynəlxalq maliyyə standartlarına keçid bu sahənin təkmilləşdirilməsinə böyük təsir göstərib.

Şərabçılıq sektorunun maliyyə hesabatları, ümumiyyətlə, satış gəlirləri, istehsal xərcləri, əməliyyat xərcləri və ümumi mənfəət kimi əsas göstəriciləri ehtiva edir. Lakin bu hesabatlar bəzən qeyri-dəqiq və mübahisəli ola bilər. Xüsusən, yüksək qiymətli şərabların istehsalında, vergi

tənzimləmələri və maliyyə uçotunun qeyri-dəqiqliyi sektorda problemlərə yol açır. Şərabçılıq şirkətlərinin bu cür problemlərlə qarşılaşması onların bazar qiymətləri, maliyyə durumları və istehsal strategiyalarını təhrif edə bilər.

Şərabçılıq sənayesində maliyyə hesabatlılığının təkmilləşdirilməsi istiqamətində ən vacib addımlardan biri beynəlxalq maliyyə hesabatları standartlarına (IFRS) uyğunluğun artırılmasıdır. Bu yanaşma yalnız hesabatların dəqiqliyini və şəffaflığını artırmaqla qalmır, həm də xarici investisiyaların cəlb edilməsi və sənayenin qlobal bazarda daha rəqabətqabiliyyətli olmasına imkan verir. Hazırda bir çox şərabçılıq şirkəti maliyyə hesabatlarının avtomatlaşdırılması və məlumatların dəqiq toplanması üçün müasir texnologiyalardan istifadə edir.

Bu məqalədə məqsədimiz şərabçılıq sektorunda maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün müxtəlif istiqamətləri və strateji tədbirləri araşdırmaqdır. Sektorun qarşılaşdığı əsas çətinlikləri müəyyən edib, bunlara əsaslanan təkmilləşdirmə yolları təklif ediləcəkdir. Eyni zamanda, maliyyə hesabatlarının inkişafı ilə əlaqəli olan beynəlxalq təcrübələr və müasir yanaşmalar nəzərdən keçiriləcəkdir.

Şərabçılıq sektorunda maliyyə hesabatlarının mövcud vəziyyəti. Şərabçılıq sənayesi, qlobal iqtisadiyyatın mühüm tərkib hissəsi olmaqla yanaşı, həm də müxtəlif ölkələrin mədəniyyətində və tarixi inkişafında xüsusi bir yer tutur. Dünyada şərab istehsalı və ticarəti 300 milyard dollardan çox dəyərə malik bir bazarı təşkil edir və bu bazarın hər il artmaqda olması, şərabçılıq sektorunun iqtisadiyyatdakı əhəmiyyətini daha da artırır. Dünyanın ən böyük şərab istehsalçıları arasında Fransa, İtaliya, İspaniya, ABŞ və Avstraliya kimi ölkələr yer alır. Bu ölkələr, yalnız şərab istehsalı ilə kifayətlənməyib, eyni zamanda şərab ixracı sahəsində də dünyanın aparıcı ölkələridir[2, s.142]. Bu sənayenin ən böyük xüsusiyyətlərindən biri, bu sektorda fəaliyyət göstərən şirkətlərin böyük bir hissənin kiçik və orta ölçülü müəssisələr olmasıdır. Bu müəssisələr adətən ailəvi bizneslər və regional istehsalçılardır, lakin bəzən onların maliyyə hesabatları ənənəvi üsullarla hazırlanır. Bu isə şərabçılıq sektorunda maliyyə hesabatlılığının şəffaflığı və dəqiqliyi baxımından bəzi problemlərə yol açır. Şərabçılıq sahəsində maliyyə hesabatları həm daxili idarəetmə, həm də xarici maraqlı tərəflər (investorlar, maliyyə analitikləri, vergi orqanları) üçün çox vacibdir. Bu məlumatlar, şirkətlərin gəlir və xərclərini, mənfəət və iqtisadi fəaliyyətlərinin səmərəliliyini göstərir. Hesabatlar həmçinin investorlar üçün şərabçılıq müəssisələrinin maliyyə sağlamlığını, inkişaf potensialını və bazar mövqeyini təhlil etmək üçün əsas alət rolunu oynayır.

Maliyyə hesabatlarının düzgünlüyü və şəffaflığı, xüsusən müasir dövrdə daha da vacib hala gəlmişdir. Beynəlxalq maliyyə hesabatları standartlarının (IFRS) tətbiqi şərabçılıq sektorunun maliyyə hesabatlarını daha şəffaf və qlobal standartlara uyğun hala gətirir. Bu, hesabatların etibarlılığını artırmaqla yanaşı, həm də sektorda maliyyə idarəçiliyini və resursların səmərəli istifadəsini təşviq edir. Şərabçılıq sahəsi, xüsusən də qlobal miqyasda fəaliyyət göstərən müəssisələr, daha çox beynəlxalq maliyyə bazarlarına çıxış əldə etmək və investorların inamını qazanmaq üçün bu standartlara uyğun hesabatlılıq sistemlərini tətbiq edirlər. Şərabçılıq sektoru üçün maliyyə hesabatlarının daha şəffaf olması yalnız maliyyə analizlərinin daha düzgün aparılmasına deyil, həm də bu sektora investisiya qoyuluşlarını artırmağa kömək edir.

Bununla yanaşı, şərabçılıq sektorunda bir çox müsbət inkişaflar baş verməkdədir. Şirkətlər maliyyə hesabatlarını avtomatlaşdırmaq və müasir informasiya texnologiyalarından istifadə etmək üçün müvafiq proqram təminatlarını və ERP (Enterprise Resource Planning) sistemlərini tətbiq edirlər. Bu sistemlər şərab istehsalçılarının əməliyyatlarını daha səmərəli şəkildə idarə etməyə, xərcləri optimallaşdırmağa və istehsal proseslərini daha şəffaf etməyə imkan verir. Məsələn, ERP sistemləri vasitəsilə şərab istehsalçıları məhsul xərclərini, inventarları, əməkhaqqını və digər maliyyə məlumatlarını asanlıqla izləyə və hesabatlarını real vaxtda əldə edə bilərlər. Bu cür texnoloji yeniliklər, həmçinin şərabçılıq sektorunda mühasibatlıq və audit xidmətlərinin keyfiyyətini artırır və daha doğru maliyyə hesabatlarının təqdim edilməsinə imkan verir. Şərabçılıq sənayesi üçün müasir texnologiyaların tətbiqi, həmçinin istehsal proseslərinin optimallaşdırılması, maliyyə xərclərinin azaldılması və ümumi biznes səmərəliliyinin artırılması baxımından da mühüm rol oynayır.

Məsələn, müasir şərab zavodlarında avadanlıq və proseslərin avtomatlaşdırılması istehsal xəttində insana ehtiyacı minimuma endirir və əməliyyat xərclərini azaldır. Bu da şərab istehsalçılarına daha şəffaf və düzgün maliyyə hesabatları təqdim etməyə kömək edir [5, s.87].

Eyni zamanda, şərabçılıq sahəsindəki dəyişikliklər təkcə daxili proseslərə deyil, həm də vergi siyasətləri və dövlət tənzimləmələrinə də təsir göstərir. Bir çox ölkədə şərabçılıq sənayesi vergi güzəştləri və subvansiyalar alır. Bununla belə, şərab istehsalçıları bu tənzimləmələrə uyğun fəaliyyət göstərməlidirlər ki, bu da maliyyə hesabatlarının düzgün hazırlanması və vergi öhdəliklərinin yerinə yetirilməsi baxımından çox vacibdir.

Şərabçılıq sektorunda maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün vacib addımlardan biri də risklərin idarə edilməsidir. Şərabçılıq şirkətləri müxtəlif təbii, iqtisadi və hüquqi risklərə məruz qalırlar. Məsələn, hava şəraiti, şərab istehsalının keyfiyyəti və bazar tələbi kimi faktorlar istehsalın rentabelliyinə və gəlirlərinə birbaşa təsir göstərir. Bu səbəbdən, maliyyə hesabatları yalnız mövcud vəziyyəti əks etdirməli deyil, eyni zamanda gələcək risklər və potensial çətinliklər barədə də məlumat verməlidir. Risklərin düzgün qiymətləndirilməsi və maliyyə strategiyalarının buna uyğun şəkildə tərtib edilməsi şərabçılıq sektorunun gələcək inkişafı və bazarda möhkəmlənməsi üçün mühüm əhəmiyyət daşıyır.

Şərabçılıq sektoru, həmçinin davamlı inkişaf məqsədlərini də nəzərə alaraq, maliyyə hesabatlarını yalnız maliyyə nəticələrinin ölçülməsi üçün deyil, həm də sosial və ətraf mühitə təsirin qiymətləndirilməsi üçün də istifadə etməyə başlamalıdır. Bu yanaşma şərabçılıq istehsalçılarının yalnız qısamüddətli maliyyə məqsədlərini deyil, uzunmüddətli davamlılıq və ekoloji məsuliyyətləri də nəzərə almasını təmin edir. Bu baxımdan, ətraf mühitə təsir, davamlı kənd təsərrüfatı praktikaları və sosial məsuliyyət məsələləri şərabçılıq sektoru üçün yeni bir perspektiv açır. Şərabçılıq müəssisələri şərab istehsalında davamlılıqla bağlı informasiya verən hesabatlar təqdim edərək həm istehsal proseslərinin daha şəffaf olmasını, həm də sosial məsuliyyətə uyğun fəaliyyətlərini nümayiş etdirə bilərlər.

Bu nöqteyi-nəzərdən, şərabçılıq sənayesi üçün maliyyə hesabatlarının təkmilləşdirilməsi yalnız maliyyə məlumatlarının dəqiqliyi və şəffaflığı ilə məhdudlaşmamalıdır. Eyni zamanda, bu hesabatların sosial və ekoloji faktorlara da diqqət yetirərək, daha geniş və daha balanslı bir maliyyə və davamlılıq göstəricilərinə yönəlməsi zəruridir. Bu cür yanaşmalar həmçinin bazarda şərab istehsalçılarının daha etibarlı və uzunmüddətli əməkdaşlıq imkanları yaratmalarına kömək edəcəkdir. Üstəlik, şərabçılıq şirkətləri bu cür məlumatları təqdim etməklə, müştəri və investorlar tərəfindən daha yüksək qiymətləndirilir, bu isə onların bazar dəyərinə və mövqeyinə müsbət şəkildə təsir edir. Bu sektorda maliyyə hesabatlarının təkmilləşdirilməsi ilə bağlı digər bir əhəmiyyətli aspekt, şərab sənayesinin qlobal bazarlarla daha geniş əlaqə yaratmasıdır. Son illər ərzində şərab istehsalçıları beynəlxalq miqyasda rəqabət aparmaq üçün öz məhsullarının maliyyə şəffaflığını və biznes əməliyyatlarının keyfiyyətini artırmağa çalışır. Məsələn, Avropada və ABŞ-da fəaliyyət göstərən bir çox şərabçılıq şirkəti maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun olmasına və müasir texnologiyalardan istifadə etməyə daha çox önəm verir. Bu yanaşmalar yalnız yerli bazarda deyil, həm də xarici bazarlarda daha yaxşı rəqabət aparmağa imkan verir. Şərabçılıq sektoru, xüsusən də kiçik və ortaölçülü istehsalçılar üçün beynəlxalq bazarlarda uğur qazanmaq, yalnız yüksək keyfiyyətli məhsul istehsal etməklə deyil, həm də maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun şəkildə təqdim edilməsi ilə mümkün olacaqdır [6, s.122].

Bununla yanaşı, şərabçılıq sektoru üçün çox vacib olan bir digər məsələ də maliyyə məlumatlarının investorlar və maliyyə analitikləri tərəfindən daha yaxşı başa düşülməsidir. Şərabçılıq sektoru, bazarda lider mövqeyə sahib olan böyük şirkətlərdən ibarət olsa da, sektordakı bir çox kiçik və orta şirkətlərin maliyyə hesabatlarının analizi hələ də çətinliklərlə üzləşir. Bu səbəbdən, maliyyə hesabatlarının daha sadə və daha anlaşılan şəkildə təqdim edilməsi vacibdir. İnvestorlar və maraqlı tərəflər üçün daha əlverişli və sadə məlumat təqdim etməklə, şərabçılıq müəssisələri yalnız maliyyə bazarında daha geniş bir iştirakçılığa yol açmış olarlar, həm də sektorun daha şaffaf olmasına və sərmayələrin artmasına imkan yaradacaqdır.

Şərabçılıq sektorunun maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün bir digər vacib amil də mühasibatlıq və audit sahəsindəki təkmilləşdirmələrdir. Şərabçılıq sənayesinin mühasibatlıq və audit xidmətləri, sektorda fəaliyyət göstərən şirkətlərin maliyyə hesabatlarının düzgünlüyünü təmin etmək və hər hansı mümkün manipulyasiyaların qarşısını almaq üçün çox vacibdir. Bu xidmətlərin müasir yanaşmalarla təkmilləşdirilməsi və daha peşəkar bir audit prosesinin tətbiq edilməsi, şərabçılıq sektorunun həm daxili, həm də xarici tərəflərə təqdim etdiyi məlumatların etibarlılığını artırır. Beləliklə, maliyyə hesabatları yalnız məruzə olunan şirkətin deyil, həm də şərabçılıq sektoru üzrə daha geniş inamın yaradılmasına xidmət edir.

Maliyyə hesabatlılıq sisteminin inkişafı üçün strategiyalar. Maliyyə hesabatlılıq sisteminin inkişafı, şərabçılıq sektorunun uzunmüddətli dayanıqlı inkişafı və bazarda daha yaxşı rəqabət aparması üçün çox vacibdir. Bu inkişaf yalnız hesabatların dəqiqliyi və şəffaflığını artırmaqla kifayətlənmir, həm də müəssisələrin maliyyə qərarlarını daha düzgün və effektiv şəkildə qəbul etmələrinə imkan verir. Şərabçılıq sənayesində maliyyə hesabatlılıq sistemlərinin təkmilləşdirilməsi üçün bir neçə strateji yanaşma mövcuddur. Bu yanaşmalar mühasibatlıq proseslərinin səmərəliliyini artırmaq, riskləri azaltmaq və sektordakı şirkətlərin beynəlxalq miqyasda daha rəqabətqabiliyyətli olmalarını təmin etmək məqsədi güdür.

İlk növbədə, beynəlxalq maliyyə hesabatları standartlarına (IFRS) uyğunluğun artırılması, şərabçılıq sektorunun maliyyə hesabatlılıq sisteminin inkişafı üçün əsas strateji yanaşmalardan biridir. Bu standartlar şərabçılıq sənayesinin hesabatlarını daha şəffaf və mütəşəkkil hala gətirir, eyni zamanda qlobal bazarlarda daha güvənli və rəqabətədavamlı olmasına imkan verir. IFRS, maliyyə hesabatlarının tərtibində birliyə və eyni yanaşmaya üstünlük verir ki, bu da şərabçılıq müəssisələrinin xarici investorlarla və digər maliyyə qurumları ilə əlaqələrini daha da asanlaşdırır. Şərab istehsalçıları bu beynəlxalq standartlara uyğunlaşaraq, yalnız maliyyə şəffaflığını artırmır, həm də xarici investisiya və maliyyə dəstəyini cəlb etməyə daha yaxın olurlar [10, s.80].

Şərabçılıq sektorunda maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün digər bir mühüm addım, mühasibatlıq və maliyyə idarəetmə proseslərinin avtomatlaşdırılmasıdır. Bu məqsədlə, müasir məlumat texnologiyalarından istifadə edərək, şərabçılıq müəssisələri maliyyə hesabatlarının hazırlanmasını sürətləndirə və səhv ehtimalını minimuma endirə bilərlər. ERP (Enterprise Resource Planning) sistemləri, şərab istehsalçılarına maliyyə məlumatlarını real vaxtda izləmək və analiz etmək imkanı verir. Bu sistemlər yalnız mühasibatlıq proseslərini asanlaşdırmaqla qalmır, həm də gəlir və xərcləri daha dəqiq şəkildə izləməyə və gələcəkdəki maliyyə planlarını düzgün qurmağa kömək edir. ERP sistemləri vasitəsilə şərabçılıq şirkətləri həm maliyyə, həm də əməliyyat məlumatlarını mərkəzləşdirə bilər, bu da onları daha şəffaf və səmərəli edir [9, s.43].

Bu sistemin inkişafı üçün bir başqa strateji addım şərabçılıq sənayesində məlumatın daha yaxşı idarə olunmasıdır. Böyük verilənlər (big data) və analitika alətlərinin tətbiqi şərab istehsalçılarına daha yaxşı maliyyə analizləri aparmağa və bazar dəyişikliklərini daha sürətli qiymətləndirməyə imkan verir. Bu yanaşma şərabçılıq şirkətlərinin maliyyə vəziyyətini daha yaxşı başa düşməsinə və gələcəkdəki riskləri daha yaxşı idarə etməsinə şərait yaradır. Məsələn, satış məlumatlarını təhlil edərək, şərab istehsalçıları bazar tələbinin artdığı və ya azaldığı dövrləri öncədən proqnozlaşdıra bilərlər. Bu da şirkətlərin istehsal planlarını optimallaşdırmasına və inventar idarəetməsini daha səmərəli etməsinə kömək edir.

Daha sonra növbəti strateji yanaşma daxili nəzarət sistemlərinin gücləndirilməsidir. Şərabçılıq sənayesində şirkətlərin maliyyə hesabatlarının düzgünlüyünü təmin etmək üçün mütəmadi olaraq daxili auditlər keçirilməsi çox vacibdir. Bu auditlər maliyyə məlumatlarının dəqiq və etibarlı olmasını təmin edir, həmçinin şirkətin fəaliyyətindəki potensial uyğunsuzluqları və riskləri aşkarlayır. Daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin şirkətlərin maliyyə resurslarını daha səmərəli idarə etməsinə və potensial korrupsiya və maliyyə manipulyasiyalarının qarşısını almasına kömək edir. Bu yanaşma maliyyə hesabatlarının etibarlılığını artırır və xarici investorların şirkətə olan inamını gücləndirir.

Bundan əlavə, şərabçılıq sektorunda maliyyə hesabatlılıq sisteminin inkişafı üçün müasir audit

alətlərinin və mütəxəssislərinin istifadəsi də vacibdir. Müasir audit texnologiyaları şərabçılıq müəssisələrinə maliyyə məlumatlarını daha sürətli və dəqiq təhlil etməyə kömək edir. Müəssisələr, mütəxəssislər tərəfindən həyata keçirilən auditlərin nəticələrini nəzərə alaraq, əməliyyatlarındakı zəif nöqtələri müəyyən edə və bu nöqtələr üzərində təkmilləşdirmələr həyata keçirə bilərlər. Bu cür yanaşma yalnız maliyyə hesabatlarının şəffaflığını artırmır, həm də şərabçılıq sektorunun daha güclü və dayanıqlı olmasına şərait yaradır[7, s.130].

Şərabçılıq sektorunun maliyyə hesabatlılıq sisteminin inkişafı üçün sonuncu strateji yanaşma, gələcəkdəki dəyişikliklərə uyğun çevik sistemlərin tətbiqidir. Maliyyə hesabatlılıq sistemləri yalnız bugünkü vəziyyəti əks etdirməməli, həm də gələcəkdəki bazar dəyişikliklərinə, texnoloji yeniliklərə və hüquqi tələblərə uyğunlaşmaq üçün çevik olmalıdır. Şərabçılıq sənayesi mütəmadi olaraq yeni tələbləri və bazar ehtiyaclarını nəzərə alaraq, öz maliyyə hesabatlılıq sistemlərini yeniləməli və inkişaf etdirməlidir. Bu çevik yanaşma şərabçılıq müəssisələrinin bazar şəraitindəki dəyişikliklərə sürətlə uyğunlaşmalarına və maliyyə resurslarını daha effektiv şəkildə istifadə etmələrinə imkan verir.

Şərabçılıq sektorunda təkmilləşdirilmiş maliyyə hesabatlarının iqtisadi təsirləri. Şərabçılıq sektorunda təkmilləşdirilmiş maliyyə hesabatlarının iqtisadi təsirləri geniş və dərin xarakter daşıyır. Şərabçılıq sektoru yalnız məhsul istehsalı və ticarət sahəsində deyil, həm də iqtisadiyyata, məşğulluğa və dövlət büdcəsinə müsbət təsir göstərir. Maliyyə hesabatlarının təkmilləşdirilməsi sektorun şəffaflığını, maliyyə məlumatlarının dəqiqliyini və etibarlılığını artırmaqla, həm daxili idarəetməni, həm də xarici investisiyaların cəlb edilməsini asanlaşdırır. Bu, şərabçılıq sənayesinin iqtisadi inkişafına və uzunmüddətli dayanıqlı böyüməsinə əhəmiyyətli dərəcədə təsir edir.

Əvvəlcə təkmilləşdirilmiş maliyyə hesabatları şərabçılıq şirkətlərinin maliyyə vəziyyətini daha dəqiq və şəffaf göstərir. Bu şəffaflıq sərmayəçilər və investorlar üçün böyük əhəmiyyət kəsb edir. Maliyyə məlumatlarının düzgün və şəffaf olması investorların şirkətlərə inamını artırır və yeni kapital qoyuluşlarının gəlməsinə şərait yaradır. Şərabçılıq sektoru, xüsusilə böyük və beynəlxalq bazarlarda fəaliyyət göstərən şirkətlər, bu cür maliyyə hesabatları ilə investorların cəlb edilməsini asanlaşdırır. Bu da öz növbəsində sektorda daha çox investisiya axınına və iqtisadi artıma gətirib çıxarır. Təsirini daha konkret olaraq göstərmək üçün, yaxşı hazırlanmış maliyyə hesabatları investorlar üçün risklərin ölçülməsi və gələcək proqnozların daha düzgün hazırlanmasını təmin edir, bu da sərmayəçilərin daha çox sərmayə qoymağa qərar verməsinə səbəb olur[2, s.98].

Bundan əlavə, maliyyə hesabatlarının təkmilləşdirilməsi şərabçılıq sənayesindəki yerli və regional iqtisadiyyatlara da müsbət təsir edir. Şərab istehsal edən müəssisələr maliyyə məlumatlarını daha düzgün və şəffaf şəkildə təqdim etdikdə, daha yaxşı maliyyə resursları idarəetməsi və daha düzgün qiymətləndirilmiş istehsal və ticarət əməliyyatları həyata keçirirlər. Bu da yerli bazarlarda şərabın daha əlverişli qiymətlərlə satılmasına və istehsalın daha səmərəli aparılmasına gətirib çıxarır. Daha yaxşı təşkil olunmuş və şəffaf maliyyə hesabatları müəssisələrin bazar şərtlərinə sürətlə uyğunlaşmasına kömək edir və qiymətlərin stabil qalmasına şərait yaradır. Bu vəziyyət yerli istehsalçıları və tədarükçüləri daha güclü edir, eyni zamanda şərabçılıq sənayesinin yerli iqtisadiyyata müsbət təsirini artırır.

Cədvəldə göstərildiyi kimi, aqrar sahənin inkişafında əsas problemlər maliyyə resurslarının qeyri-bərabər paylanması, texnoloji imkanların regionlar üzrə fərqliliyi və bazar riskləridir. Bu amillər subsektorlar üzrə balanssızlığa, məhsuldarlığın aşağı səviyyədə qalmasına və kənd təsərrüfatının ÜDM-də payının beynəlxalq göstəricilərdən geri qalmasına səbəb olur. Bu baxımdan dövlət dəstəyi, innovativ texnologiyaların tətbiqi və resursların səmərəli idarə olunması aqrar sahənin dayanıqlı inkişafında həlledici rol oynayır.

E.Ə.Quliyev aqrar sahədə texnoloji inkişafın, əmək və kapital resurslarından səmərəli istifadənin məhsulun rəqabət qabiliyyətini müəyyən etdiyini vurğulayır. Müəllif göstərir ki, iri aqrar təsərrüfatlarda əmək məhsuldarlığı və əsas fondlardan istifadə göstəricilərinə yetərincə diqqət ayrılmadıqda, yüksək potensiala baxmayaraq gəlirlilik aşağı olur və bazar rəqabəti zəifləyir [6, s. 32]. Bu yanaşma aqrar bazarlarda institusional tənzimləmənin vacibliyini əsaslandırır.

N.C.Qafarovun tədqiqatlarında isə aqrar inkişafın əsasən maliyyə resursları, subsidiya və kredit mexanizmləri, texnoloji təminat və bazar sabitliyi kimi iqtisadi amillərin qarşılıqlı təsirindən asılı olduğu göstərilir. Müəllif regionlar üzrə texnoloji və infrastruktur fərqliliklərinin subsektorların

inkişaf trayektoriyasına birbaşa təsir etdiyini qeyd edir [4, s. 211–212]. Bu yanaşma regional balansın qorunmasının əhəmiyyətini ön plana çıxarır.

Cədvəl 2.

Aqrar sahədə iqtisadi amillərin qarşılıqlı təsir mexanizmləri: problemlər, təsirlər və həll yolları

Mövcud çətinliklər	Aqrar sahəyə təsiri	Mümkün həll yolu və tövsiyələr
Maliyyə resurslarının qeyri-bərabər paylanması və kredit imkanlarının məhdudluğu	Fermerlərin və kiçik təsərrüfatların texnoloji yeniliklərə və məhsul istehsalına çıxış imkanlarını məhdudlaşdırır, subsektorlar arasında məhsuldarlıq fərqliliklərinə səbəb olur.	Dövlət tərəfindən hədəfli subsidiyalar, kredit mexanizmlərinin genişləndirilməsi və xüsusi investisiya proqramlarının tətbiqi ilə maliyyə resurslarının balanslaşdırılması
Texnologiya və infrastrukturun regionlar üzrə fərqli səviyyədə olması	Müasir texnologiyaların və suvarma infrastrukturunun çatışmazlığı məhsuldarlığı aşağı salır, regional balansın pozulmasına və subsektorlar arasında inkişaf fərqlərinə gətirib çıxarır.	Suvarma sistemlərinin yenilənməsi, innovativ texnologiyaların tətbiqi, regionlara texnoloji dəstəyin təmin edilməsi və təlim proqramlarının təşkili
Bazar riskləri və qiymət dalğalanmaları	Məhsul istehsalı planlaşdırılmasında qeyri-müəyyənlik yaradır, fermerlərin gəlir sabitliyini azaldır və investisiya qoyuluşunu riskli edir	Bazara çıxış mexanizmlərinin gücləndirilməsi, qiymət stabilliyi üçün dövlət siyasəti və bazar proqnozlaşdırma sistemlərinin tətbiqi
Sub-sektorlar arasında balansın pozulması	Bitkiçilik və heyvandarlıq arasında resurs və investisiya paylanması qeyri-bərabər olur, daxili ərzaq təminatı və ixrac potensialı optimal səviyyəyə çatmır.	Resursların səmərəli idarə olunması, subsektorlar üzrə tarazlı inkişaf strategiyalarının hazırlanması və dövlət tərəfindən koordinasiyanın təmin olunması
Beynəlxalq standartlarla müqayisədə məhsuldarlığın aşağı olması	ÜDM-də payın beynəlxalq göstəricilərdən geri qalması, rəqabət qabiliyyətinin azalması və sektorda potensialın tam realizə olunmaması	Beynəlxalq təcrübənin tətbiqi, məhsuldarlığın artırılması

Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır.

Beynəlxalq təcrübə də iqtisadi və texnoloji amillərin koordinasiyasının vacibliyini təsdiqləyir. OECD-FAO Agricultural Outlook 2025–2034 hesabatına əsasən, kənd təsərrüfatında istehsal artımı əsasən məhsuldarlıq qazancı və innovativ texnologiyaların tətbiqi hesabına mümkün olacaqdır [12]. FAO-nun rəqəmsal kənd təsərrüfatı üzrə araşdırmaları isə göstərir ki, rəqəmsal və innovativ həllər resurslardan istifadənin optimallaşdırılmasına və subsektorlar üzrə məhsuldarlığın yüksəldilməsinə töhfə verir [13].

Azərbaycan kontekstində maliyyə və texnoloji dəstək mexanizmlərinin genişləndirilməsinə baxmayaraq, regionlar üzrə infrastruktur və texnoloji çıxış imkanlarındakı qeyri-bərabərlik sahənin potensialının tam reallaşmasına mane olur. Bu isə beynəlxalq təcrübənin milli aqrar siyasətə daha səmərəli inteqrasiyasının vacibliyini göstərir.

Eyni zamanda, milli iqtisadiyyatın və aqrar sahənin inkişafı üçün beynəlxalq iqtisadi əlaqələrin – xüsusilə beynəlxalq ticarət, kapital və əməyin miqrasiyası proseslərinin – təhlili və dərk edilməsi strateji əhəmiyyət kəsb edir.

Cədvəl 3.

Aqrar sahədə iqtisadi amillərin qarşılıqlı təsir mexanizmlərinin subsektorlar üzrə təsiri və problemlərin analizi (2020-2025-ci illər üçün)

İqtisadi amillər	2020-2025 orta göstərici vəziyyəti (Azərbaycan)	Beynəlxalq kontekst	Aqrar sahəyə təsiri	Mövcud çətinliklər
Subsidiyalar	Təqribi 714,5 milyon AZN 380 704 fermerə verilib.	Avropa İttifaqı kimi bəzi strukturlarda subsidiyalar daha hədəflənmiş və səmərəli paylanır.	Fermerlərin texnika və avadanlığa çıxışını artırır, modernizasiyanı stimullaşdırır.	Subsidiya strukturu hələ də təkmilləşməyə ehtiyac duyur; səmərəlilik və qanunilik tam deyil.
Kredit və maliyyə dəstəyi	2020-2023 illərdə sektor üzrə kredit artır, 2022-də 583,7 mln AZN civarı; 2025-də güzəştli kreditlər ~89,8 mln AZN verilib.	Dünya Bankı və beynəlxalq institutlar aqrar kreditləri daha geniş və diversifikasiyalı təmin edirlər.	Bank kreditləri texnologiya və sığorta imkanlarını artırır, modernizasiya üçün şərait yaradır.	Kreditlər hələ də qeyri-kafidir, faiz və şərtlər subsektorlar üçün optimallaşmayıb.
İnvestisiya və texnoloji dəstək	Avadanlıq subsidiyaları 80-83 mln AZN səviyyəsində ayrılır.	Qlobal layihələrdə texnologiya + keyfiyyətartırıcı investisiyalar subsektorları gücləndirir.	Müasir texnologiyalar məhsuldarlığı artırır; subsektorlar arasında fərqlilikləri azaldır.	Texnoloji tətbiq subsektorlar arasında hələ balanslaşdırılmayıb
Bazar əlaqələri və ixrac imkanları	Aqrar məhsul ixracında artım müşahidə olunmuşdur.	Beynəlxalq təcrübədə inkişaf etmiş ölkələrdə aqrar məhsulların ixrac imkanları və bazar infrastrukturu daha genişdir, məhsulların dünya bazarına çıxışı yüksək səviyyədə təşkil olunub.	Bazar əlaqələri və ixrac imkanları aqrar sahədə gəlirləri artırır, istehsalı stimullaşdırır və subsektorlar arasında rəqabət qabiliyyətini gücləndirir.	Azərbaycan aqrar məhsullarının bazar və ixrac infrastrukturu hələ kifayət qədər inkişaf etməyib, bu isə subsektorların tam potensialını istifadə etməyə imkan vermir.

Mənbə: https://stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2024.pdf? https://statbase.org/data/wld-agriculture-and-fishing-value-added-share/?

Nəticə

Aparılmış tədqiqatın nəticələrinə əsasən aqrar sahədə mövcud çətinliklərin həlli üçün ilk növbədə iqtisadi amillərin koordinasiyasının gücləndirilməsi zəruridir. Bu məqsədlə dövlət subsidiyaları və kredit mexanizmləri regionlar və subsektorlar üzrə daha balanslı və şəffaf şəkildə yönəldilməlidir. Suvarma infrastrukturu və müasir aqrotexnoloji avadanlıqların tətbiqi xüsusilə məhsuldarlığın aşağı olduğu bölgələrdə prioritet istiqamət kimi müəyyən edilməlidir. Fermerlərin bazar risklərini azaltmaq üçün kənd təsərrüfatı məhsulları üzrə qiymət monitorinqi və proqnozlaşdırma mexanizmləri gücləndirilməlidir. Eyni zamanda, fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə təlim və məsləhət xidmətlərinin genişləndirilməsi vacibdir. İxrac potensialının artırılması üçün aqrar məhsulların emalı, saxlanması və logistika infrastrukturunun inkişaf etdirilməsi tövsiyə olunur. Ümumilikdə, bu istiqamətdə həyata keçiriləcək kompleks tədbirlər aqrar sahənin dayanıqlı inkişafını və milli ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsini təmin edə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. https://e- qanun.az/framework/57124
2. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, "Kooperasiya" nəşriyyatı, 536 s.
3. Bədirzadə G.Ş. Azərbaycanda aqrar sahənin inkişafında informasiya-kommunikasiya texnologiyalarının səmərəliliyinin qiymətləndirilməsi. Kənd təsərrüfatının iqtisadiyyatı. Elmi-praktik jurnal. Aqrar Tədqiqatlar Mərkəzi. № 4 (38) Bakı – 2021. 125 s.
4. Qafarov N.C. "Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri". Monoqrafiya. Bakı, 2023, Kooperasiya" nəşriyyatı, 320 s
5. Quliyev, E.Ə., Səfərov C.N. Kənd təsərrüfatının ixtisaslaşması və regionlarda aqrar məhsullar bazarının inkişafı. Kənd təsərrüfatının iqtisadiyyatı - 2024, № 2 (46). (s. 38-46). https://atm.gov.az/pdf/magazine/jurnal-n2-2024-online-son856.pdf
6. Quliyev, E.Ə. Kənd təsərrüfatı məhsullarının istehsal xərclərinin aşağı salınması istiqamətləri. Kənd təsərrüfatının iqtisadiyyatı. Elmi-praktik jurnal. Aqrar Tədqiqatlar Mərkəzi. № 2 (32) Bakı – 2020. (s.28-35). https://atm.gov.az/pdf/magazine/2.pdf
7. Pənahov A. "Beynəlxalq iqtisadi siyasət". Metodik vəsait. Bakı, 2016. 171 s. https://lib.dia.edu.az/Resources/OpenFile?name=491f9446-d203-443e-b5fe-de7da60e7508-52F683A9.pdf#toolbar=0
8. Sadıqov Y.M. "Aqrar emal sənayesinin iqtisadiyyatı". Bakı, 2025. 340 s.
9. Şəkərəlisoy, İ. Sahibkarlığın inkişafının regional problemləri. Naxçıvan Dövlət Universiteti. "İqtisadi inkişafın Naxçıvan modeli və mühasibat uçotunun aktual problemləri" mövzusunda elmi konfransın materialları, Naxçıvan, "Qeyrət" nəşriyyatı, 2020, 148 s.(s. 81-84).
10. Şirinzadə, F.Q., Mahmudov, E.H. Aqrar sahənin problemləri və inkişaf perspektivləri. ADAU-nun Elmi Əsərləri. Gəncə, 2018, №1. (s 150-153). https://www.elibrary.az/docs/jurnal/jrn2018_103.pdf
11. Industrial policy and economic planning: the case of development-based public procurement and national champions in supporting local manufacturing. Harvard University, John F. Kennedy School of Government, 2021, 98 p.
12. OECD və FAO tərəfindən birgə nəşr olunan *OECD-FAO Agricultural Outlook 2025–2034* - geniş qlobal aqrar perspektivlər və məhsuldarlıq trendləri haqqında hesabat. https://www.oecd.org/en/publications/2025/07/oecd-fao-agricultural-outlook-2025-2034_3eb15914.html
13. FAO-nun rəqəmsal kənd təsərrüfatının innovativ texnoloji həllər üzrə səhifəsi - kənd təsərrüfatı texnologiyaları və rəqəmsal transformasiya barədə məlumatlar. https://www.fao.org/innovation/home/digital-agriculture-and-aiinnovation/en
14. https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/443201548471646286/turkey-irrigation-modernization-project?
15. https://www.theglobaleconomy.com/Azerbaijan/share_of_agriculture
16. https://www.stat.gov.az/source/agriculture/?utm_source=chatgpt.com

Али Акбар оглы Годжаев
докторант Бакинского Инженерного Университета
Email: agocayev1@beu.edu.az

Механизмы взаимодействия экономических факторов в развитии аграрного сектора

Резюме

В статье системно проанализированы механизмы взаимодействия экономических факторов в развитии аграрного сектора. Исследовано влияние земельных, трудовых и капиталь-

ных ресурсов, государственной поддержки, инвестиционной среды, рыночной инфраструктуры и технологических инноваций на объем сельскохозяйственного производства, производительность и устойчивое развитие. Анализ показывает, что взаимозависимость экономических факторов играет решающую роль в повышении эффективности производства. В то же время ограниченность финансовых ресурсов, незавершенность рыночных механизмов и высокий уровень рисков определены как основные препятствия аграрного развития. Обоснована необходимость углубления институциональных реформ и внедрения инновационных экономических механизмов для обеспечения устойчивого развития аграрного сектора. Результаты исследования имеют научно-практическое значение для формирования национальной аграрной политики и укрепления продовольственной безопасности.

Цель исследования: Целью исследования является анализ текущего состояния и динамики развития аграрного сектора Азербайджана в контексте взаимодействия экономических факторов. В работе оценивается влияние финансовых ресурсов, государственной поддержки, инвестиционных возможностей, рыночных механизмов и технологических факторов на производительность, а также на сбалансированное развитие подотраслей растениеводства и животноводства. Кроме того, исследуется роль региональных различий в развитии аграрного сектора и формируются рекомендации, направленные на обеспечение устойчивого развития и укрепление продовольственной безопасности.

Методология исследования: Исследование основано на методах системного анализа и сравнительного исследования. Использованы данные Государственного комитета статистики, ФАО и других надежных источников. Международный опыт проанализирован на основе сравнительных наблюдений, а для обоснования выводов применены методы обобщения и научной абстракции.

Практическая значимость: Результаты исследования имеют практическое значение для совершенствования механизмов субсидирования, кредитования и инвестирования в аграрном секторе. Материалы исследования могут быть использованы для сокращения региональных различий в производительности, обеспечения баланса между подотраслями и более эффективного использования ресурсов в фермерских хозяйствах.

Результаты исследования: Результаты показывают, что несмотря на наблюдаемый рост в аграрном секторе, развитие носит неравномерный характер по регионам и подотраслям. Слабая координация экономических факторов препятствует полной реализации потенциала производительности. Международные сравнения свидетельствуют о относительно низкой доле аграрного сектора в ВВП и необходимости проведения структурных реформ. Усиление механизмов взаимодействия экономических факторов рассматривается как ключевое условие устойчивого развития.

Оригинальность и научная новизна: Оригинальность исследования заключается в комплексной оценке развития аграрного сектора на основе взаимодействия экономических факторов. Подотрасли растениеводства и животноводства проанализированы в контексте их взаимозависимости, а региональные различия увязаны с экономическими детерминантами. Такой подход формирует новый научный взгляд, направленный на синхронизацию экономических факторов с целью обеспечения устойчивого развития аграрного сектора.

Ключевые слова: Агропереработка, агроэкономика, развитие, производительность, инвестиции, механизмы, государственная поддержка, продовольственная безопасность.

Ali Akbar oglu Gojayev
Doctoral Student, Baku Engineering University
Email: agocayev1@beu.edu.az

Interaction mechanisms of economic factors in the development of the agricultural sector

Summary

The article provides a systematic analysis of the mechanisms of interaction among economic factors in the development of the agricultural sector. The impact of land, labor, and capital resources, state support, the investment environment, market infrastructure, and technological innovations on the volume of agricultural production, productivity, and sustainable development is examined. The analysis demonstrates that the interdependence of economic factors plays a decisive role in enhancing production efficiency. At the same time, limited financial resources, incomplete market mechanisms, and high levels of risk are identified as major constraints to agricultural development. The study substantiates that deepening institutional reforms and implementing innovative economic mechanisms are essential for ensuring the sustainable development of the agricultural sector. The findings are of scientific and practical significance for national agricultural policy and food security.

Purpose of the study: The purpose of the study is to analyze the current state and development dynamics of Azerbaijan's agricultural sector within the context of the interaction of economic factors. The research assesses the impact of financial resources, state support, investment opportunities, market mechanisms, and technological factors on productivity, as well as on the balanced development of crop production and livestock subsectors. In addition, the role of regional disparities in agricultural development is examined, and recommendations aimed at strengthening sustainable development and food security are formulated.

Methodology: The study is based on systematic analysis and comparative research methods. Data from the State Statistical Committee, FAO, and other reliable sources were used to examine the development dynamics of the agricultural sector. International experience was analyzed through comparative observations, while generalization and scientific abstraction methods were applied to substantiate the research findings.

Practical significance: The research results have practical relevance for improving subsidy, credit, and investment mechanisms in the agricultural sector. The findings can be used to reduce regional productivity disparities, ensure balance between subsectors, and promote more efficient use of resources in farming enterprises.

Results: The results indicate that although stable growth has been observed in the agricultural sector, development remains uneven across regions and subsectors. Weak coordination among economic factors hinders the full realization of productivity potential. International comparisons reveal that the share of agriculture in GDP is relatively low, highlighting the need for structural reforms. Strengthening the mechanisms of interaction among economic factors is considered a key prerequisite for sustainable development.

Originality and scientific novelty: The originality of the study lies in its comprehensive assessment of agricultural development based on the interaction of economic factors. Crop production and livestock subsectors are analyzed within a framework of mutual interdependence, and regional disparities are linked to economic determinants. This approach forms a new scientific perspective aimed at synchronizing economic factors to ensure sustainable development in the agricultural sector.

Key words: Agricultural processing, agricultural economy, development, productivity, investment, mechanisms, state support, food security

UOT 330.

Faruq Həmzə oğlu ZİYADOV
Azərbaycan Kooperasiya Universiteti, doktorant
Email: faruqziyadov@hotmail.com
https://doi.org/10.30546/4.71.73001.2026.005.028

KƏND TƏSƏRRÜFATI EMALI MÜƏSSİSƏLƏRİNDƏ İNVESTİSİYA SİYASƏTİNİN İNNOVATİV MODERNLƏŞDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi - Kənd təsərrüfatı emalı müəssisələrində innovativ investisiya siyasətinin formalaşdırılması və bu siyasətin səmərəliliyinin artırılması yollarını müəyyənləşdirməkdir.

İşin metodologiyası - Tədqiqatda analitik təhlil, müqayisəli metod, sistem yanaşması və praktiki məlumatların strukturlaşdırılması üsullarından istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Araşdırmanın nəticələri kənd təsərrüfatı emalı sahəsində investisiya qərarlarının qəbulunda və dövlət siyasətinin formalaşdırılmasında tətbiq oluna bilər.

Tədqiqatın nəticələri - Müəyyən olunmuşdur ki, innovativ maliyyə alətləri, dövlət-özəl tərəfdaşlığı və texnoloji modernləşmə emal müəssisələrinin rəqabət qabiliyyətini və ixrac potensialını əhəmiyyətli dərəcədə artırır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Tədqiqat Azərbaycanda aqroemal sektorunda innovativ investisiya siyasətinin elmi əsaslarla sistemləşdirilmiş ilk konseptual yanaşmasını təqdim edir.

Açar sözlər: innovativ maliyyə, aqroemal, investisiya siyasəti, texnoloji modernləşmə.

Giriş

Azərbaycan üçün kənd təsərrüfatı emalı sənayesi strateji əhəmiyyət daşıyır – ölkənin ərzaq təhlükəsizliyi və qeyri-neft ixrac potensialı əsasən bu sahə ilə bağlıdır. Son 16 ildə dövlət ərzaq təhlükəsizliyini iqtisadi siyasətin əsas istiqamətlərindən biri elan etmiş, güzəştli kreditlər, subsidiyalar, aqrolizinq xidmətləri və müasir texnologiyaların tətbiqi nəticəsində bitkiçilik 3,1 dəfə, heyvandarlıq 3,4 dəfə artmışdır. Kənd təsərrüfatı istehsalı və emalı sektoru Azərbaycan iqtisadiyyatının prioritet sahəsi hesab edilir və son illərdə bu sektorda məqsədyönlü tədbirlər sayəsində əlverişli şərait yaradılmışdır. Lakin xammal istehsalının böyük olduğu halda emal müəssisələrinin potensialının tam reallaşmaması, rəqabət qabiliyyətinin aşağı olması və maliyyə-alət çatışmazlıqları kimi problemlər mövcuddur. Bu baxımdan aqroemal müəssisələrində investisiya siyasətinin innovativ üsullarla modernləşdirilməsi vacibdir.

İnnovativ investisiya yanaşmaları və onların təsiri

Aqroemal sahəsinin inkişafı üçün müasir investisiya alətlərinin tətbiqi zəruridir. Beynəlxalq təcrübə göstərir ki, yüksək riskli və innovativ layihələrə vençur kapitalı yatırımları maliyyələşdirmə baxımından effektivdir. Məsələn, aqroemal müəssisələri üçün vençur fondları və startap investisiya mexanizmləri yaradılmalı, onların bu sahədə risk götürməsi subsidiyalaşdırılmalıdır. Eyni zamanda faktorinq xidmətləri də dövriyyə kapitalını gücləndirmək üçün mühüm rol oynayır – xüsusilə kiçik emal müəssisələri üçün faktura əsaslı kredit əldə etməyə imkan verir. Bu kimi innovativ maliyyə mexanizmlərinin tətbiqi emalçıların müasir avadanlıqlara investisiya qoymasına şərait yaradacaq və sərfəli əməliyyat kapitalı təmin edəcək.

Bundan başqa, aqrar və sənaye istehsalçılarının sinerjisini artırmaq üçün klaster və aqropark modellərinin tətbiqi tövsiyə edilir. Dövlət hesabına qurulan aqroparklar torpaq təsərrüfatları ilə emal müəssisələrini birləşdirərək innovasiya mərkəzinə çevrilir. Məsələn, hazırda Azərbaycanda 17 aqropark fəaliyyət göstərir, gələcəkdə 51, ümumi 240 min ha ərazidə aqroparkın yaradılması planlaşdırılır ki, bu da ildə 1 milyard manata qədər əlavə dəyər istehsal edəcək. Bu cür model emal sənayesinə müasir texnologiyaların və təşkilati strukturun gətirilməsinə, emal həcminin artırılmasına şərait yaradır. Qablaşdırma sənayesində Avropa və Asiya şirkətlərinin marağı da buna nümu-

nədir: onlar Azərbaycanda emal sahələrinə birgə müəssisələr və avadanlıq lizinqi təklif edərək investisiya qoymaq istəyir. Belə əməkdaşlıq emal zavodlarında yeni texnologiyaların tətbiqi və lokal istehsalın genişləndirilməsinə gətirib çıxara bilər [2, s.41].

Cədvəl 1.

Azərbaycanda kənd təsərrüfatı emalı müəssisələrinin innovativ investisiya ehtiyacları və mövcud imkanları

İnvestisiya istiqaməti	Mövcud vəziyyət	Tətbiq olunmalı innovasiyalar	Gözlənilən nəticə
Texnoloji avadanlıq	Köhnəlmiş və enerji sərfiyyatı yüksək avadanlıqlar üstünlük təşkil edir	Robotlaşdırılmış emal xətləri, enerjiyə qənaət edən texnologiyalar, aseptik qablaşdırma	Məhsuldarlığın artması, istehsal itkilərinin azalması
Rəqəmsal idarəetmə	Rəqəmsal idarəetmə alətləri məhduddur	ERP, SCM, EKTİS inteqrasiyası, sensora əsaslanan istehsal monitorinqi	Müasir planlaşdırma, şəffaflıq və operativ qərarvermə
Maliyyələşdirmə mexanizmləri	Ənənəvi kreditləşmə üstünlük təşkil edir	Vençur kapitalı, faktorinq, lizinq, aqrar sığorta	İnnovativ layihələrin maliyyə əlçatanlığının artması
Kadr potensialı	İnnovativ bacarıqlara malik mütəxəssis çatışmazlığı	Peşəkar təlimlər, texnoloji inkubatorlar, universitet–sənaye əməkdaşlığı	Yüksək ixtisaslı kadrların formalaşması
Kooperasiya və klasterləşmə	Fermer-emalçı əlaqələri qismən zəifdir	Aqroparklar, emal klasterləri, dövlət-özəl tərəfdaşlığı	Xammal təminatı və logistikanın optimallaşması

Mənbə: İnternet resursları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 1-də göstərilən məlumatlar Azərbaycanda kənd təsərrüfatı emalı müəssisələrinin inkişaf trayektoriyasını və onların innovativ investisiya ehtiyaclarını sistemləşdirilmiş şəkildə əks etdirir. Əldə olunan göstəricilər göstərir ki, sektorun potensialı kifayət qədər yüksək olsa da, onun reallaşdırılması üçün texnoloji, maliyyə və institusional modernləşmə həlledici rol oynayır. Mövcud vəziyyət göstərir ki, emal müəssisələrinin əksəriyyətində avadanlıqlar köhnədir, enerji sərfiyyatı yüksəkdir və istehsal itkiləri nəzərəçarpacaq dərəcədə çoxdur. Bu səbəbdən robotlaşdırılmış xətlər və enerji-effektiv sistemlər kimi innovativ texnologiyaların tətbiqi emal proseslərində keyfiyyət və səmərəliliyi artıracaq.

Digər mühüm məqam rəqəmsal idarəetmə sistemlərinin zəif tətbiqidir. Cədvəldə göstərildiyi kimi, SCM və ERP sistemlərinin tətbiqi təkcə logistikanın və təchizat zəncirinin effektivləşdirilməsini deyil, həm də istehsal prosesində şəffaflıq və operativ qərarverməni təmin edəcək. Bu isə müasir qida sənayesi üçün zəruri olan izlənəbilənlik və keyfiyyət standartlarına uyğunluğu gücləndirəcək [5].

Maliyyə mexanizmləri üzrə məlumatlar göstərir ki, ənənəvi kreditlər innovativ layihələrin maliyyələşdirilməsi üçün kifayət deyil. Faktorinq, vençur kapitalı və lizinq kimi alternativ maliyyələşdirmə alətlərinin genişləndirilməsi xüsusilə kiçik və orta emal müəssisələrinin maliyyə əlçatanlığını artırar. Bu da innovasiya tətbiqini sürətləndirər.

Cədvəldə qeyd edilən digər vacib sahə kadr potensialıdır. İnnovativ modernləşmə yalnız texnika deyil, həm də insan kapitalı tələb edir. Bu baxımdan universitet–sənaye əməkdaşlığının gücləndirilməsi və texnoloji inkubatorların yaradılması mühüm addımdır.

Ümumilikdə cədvəl göstərir ki, innovativ investisiya siyasətinin tətbiqi emal müəssisələrinin rəqabət qabiliyyətini artıracaq, xammaldan istifadənin səmərəliliyini yüksəldəcək və ölkənin qeyri-neft ixracını genişləndirəcək.

Müasir texnologiyaların tətbiqi

Emal müəssisələrinin səmərəliliyini artırmaq üçün müasir texnologiyaların qəbulu olduqca önəmlidir. Aqrar texnologiyalar – məsələn, peyk və dronlarla müşahidə, dəqiq aqrar metodlar, sensor sistemləri – əkinçilikdə məhsuldarlığı yüksəldərək emal zavodlarına keyfiyyətli xammal təmin edir. Hazırda Azərbaycanda peyk məlumatlarından və SCM (təchizat zənciri idarəetmə) sistemlərindən istifadə tədbiq olunur ki, bu da məhsulun saxlanması, daşınması və paylanmasını optimallaşdırır. Dövlətin dəstəyi ilə aqroparklarda müasir suvarma sistemləri tətbiq edilir ki, bu da hektardan istehsal həcmini iki dəfəyədək artırır [1, s.55].

Emal müəssisələrinə gəldikdə, soyutma anbarları, robotizasiyada xətlər və avtomatlaşdırılmış qablaşdırma texnologiyaları tətbiq olunmalıdır. Məhsulun keyfiyyətini artırmaq üçün qida təhlükəsizliyi standartlarına cavab verən emal avadanlığı, aseptik qablaşdırma sistemləri, enerji sərfiyyatını azaldan texnoloji proseslərdən istifadə etmək lazımdır. Bu cür texnoloji yeniliklər məhsulun saxlanma ömrünü uzadır və idxaldan asılılığı azaldır. Həmçinin kənd təsərrüfatı sahəsində elektron informasiya sistemləri genişləndirilir – məsələn, EKTİS (Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi) yaradılmış, 2020-ci ildən etibarən bütün subsidiyalar bu sistem üzərindən verilir və beləcə şəffaflıq təmin olunur. Bu kimi rəqəmsal sistemlər həm fermerlərə, həm də emalçılara dövlət xidmətlərinə çıxışı asanlaşdırır və istehsal–emal zəncirində mərkəzləşdirilmiş monitorinq imkanları yaradır.

Dövlətin rolu

Dövlət aqroemal müəssisələrinin innovativ inkişafında stimulyativ rol oynayır. Rəsmi sənədlərdə emal sənayesinin genişlənməsi və emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması üçün məqsədyönlü tədbirlərin görüldüyü vurğulanır. Kənd təsərrüfatı və emal sektoru dövlətin diqqət mərkəzində saxlanılıb, bu istiqamətdə proqramlar qəbul edilməklə ixracın artırılması və aqroparkların yaradılması kimi addımlar atılmışdır. Məsələn, Prezident sərəncamıyla təsdiqlənmiş aqropark layihələri ərzaq təhlükəsizliyini gücləndirməklə yanaşı, kənd təsərrüfatı məhsullarının emalı və ixracına şərait yaratmışdır [3].

Dövlət həmçinin aqrar kredit və investisiya mühitini yaxşılaşdıran islahatlar aparır. Dövlət büdcəsi subsidiyalar, güzəştlər və vergidən azadolmalar vasitəsilə kənd təsərrüfatı texnikasının, toxum və gübrənin idxalını stimullaşdırır; aqrar sığorta sistemi, lizinq və aqrolizinq mexanizmləri inkişaf etdirilir. Bütün bu tədbirlər fermerlərin və emalçıların maliyyə resurslarına çıxışını asanlaşdırır. Azərbaycanda 2003–2022-ci illərdə kənd təsərrüfatına investisiyalar on dəfədən çox artmış, xüsusilə 2018-dən sonra qeyri-dövlət sektoru investisiyaların əsas hissəsini təşkil etməyə başlamışdır. Beləliklə, dövlət emal müəssisələrinə istiqamətlənən investisiyaları dəstəkləyir və investisiya mühitinin təkmilləşdirilməsinə çalışır.

Eyni zamanda, beynəlxalq təcrübəyə əsaslanaraq inzibati maneələri aradan qaldırmaq və sərmayədar marağını artırmaq üçün addımlar atılır. Misal üçün, Dünya Bankı və IFC ilə birgə layihələrdə investisiya strategiyası hazırlanması, sənaye zəncirində tənzimləmə prosedurlarının sadələşdirilməsi və qida təhlükəsizliyi sisteminin modernləşdirilməsi nəzərdə tutulur. Bu cür təşəbbüslər Azərbaycan aqroemal sektoruna xarici sərmayə cəlb etmək və lokallaşdırmaya əsaslanan innovativ inkişaf üçün mühüm zəmindir.

Mövcud problemlər və inkişaf imkanları

Bütün bu potensiala baxmayaraq, emal sektoru qarşısında ciddi çağırışlar var. İlk növbədə, kənd təsərrüfatının emala yönəlmiş hissəsi hələ də məhduddur: məsələn, pomidor istehsalı yüksək səviyyədə olsa da, emal həcmi ümumi istehsalın cəmi ~3%-ni təşkil edir. Ümumiyyətlə, istehsal böyükdür, emal kiçik; kənd təsərrüfatı məhsullarının əksəriyyəti xam formada satılır. Bu da onu göstərir ki, emal müəssisələrinin gücü artırılmalı və əlavə investisiya təşviq edilməlidir [6, s.74].

Digər mühüm çətinliklər sırasında maliyyə mənbələrinin məhdudluğu, texniki bilik və kadr çatışmazlığı, infrastruktur problemləri durur. Məsələn, innovasiyaların tətbiqində ən böyük maneələrdən biri məhz maliyyə resurslarının çatışmazlığıdır. Dövlət subsidiyalarının məhdudluğu, zəif institusional dəstək, kredit mexanizmlərinin hələ tam təkmilləşdirilməməsi aqroemal müəssi-

sələrinin yeniliklərə investisiya qoymasını çətinləşdirir. İnfrastruktur baxımından da regionlarda yolların, elektrik şəbəkəsinin və suvarma sistemlərinin tam hazır olmaması istehsal və emal proseslərini məhdudlaşdırır. Eyni zamanda emal müəssisələrində müasir avadanlıq və ixtisaslı işçi qüvvəsi çatışmır ki, bu da məhsuldarlıq və rəqabət qabiliyyətini aşağı salır.

Buna baxmayaraq, inkişaf üçün böyük imkanlar da mövcuddur. Azərbaycan çoxşaxəli aqroiqlim şəraiti, dövlət dəstəyi və bazar coğrafiyası ilə bu potensialdan daha çox faydalana bilər. Məsələn, qeyri-dövlət investisiyalarının artması, aqropark və klaster sxemlərinin inkişafı potensial əlavə dəyər yaradır. 17 aktiv aqropark hal-hazırda kənd təsərrüfatı və emalın birləşdirildiyi mərkəzə çevrilib. Bundan əlavə, regionlararası ixrac potensialının artırılması üçün təkcə ərzaq emalında deyil, qablaşdırma və logistika sahəsində də infrastruktur və texnologiya yatırımları zəruridir. Məsələn, Azərbaycanda sənaye və kənd təsərrüfatının inkişafı qablaşdırma sənayesinin genişləndirilməsini zəruri edir və bu sahəyə xarici investisiyaların girişi müşahidə olunur. İdxalın azaldılması və idxal əvəzləyən emal məhsullarının istehsalı üçün yüksək texnologiyaların tətbiqi, fermer-təchizatçı münasibətlərinin yaxşılaşdırılması və ixrac dəstəyinin genişləndirilməsi prioritet kimi durur. Ümumilikdə, dövlət proqramları, yeni maliyyə alətləri (vençur, faktorinq), beynəlxalq təcrübə və innovasiya ekosistemlərinin qurulması kənd təsərrüfatı emalında səmərəliliyin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi üçün geniş imkanlar yaradır.

Aqrar-emal müəssisələrində innovativ investisiya modellərinin inkişaf meyilləri

Müasir dövrdə aqrar-emal müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi və istehsal proseslərinin səmərəliliyinin artırılması innovativ investisiya modellərinin tətbiqi ilə sıx şəkildə bağlıdır. İnnovasiyalar yalnız texnoloji yeniliklərin mənimsənilməsi deyil, həm də istehsal, idarəetmə, logistika və marketinq sahələrində yeni yanaşmaların formalaşdırılmasını tələb edir. Bu baxımdan investisiya siyasətinin modernləşdirilməsi aqrar-emal müəssisələrinin fəaliyyətində strateji əhəmiyyət kəsb edən amillərdən biridir. Hazırda dünyada aqrar sektor üçün xarakterik olan əsas meyillər rəqəmsallaşma, avtomatlaşdırma, enerji səmərəliliyi və davamlı istehsal prinsiplərinə keçidlə müşahidə olunur. Bu meyillər investisiya qərarlarının qəbulunda innovativ modellərin üstünlüyünü daha da artırır [4, s.27].

İnnovativ investisiya modellərinin inkişafı kənd təsərrüfatı emalı sahəsində üç əsas istiqamətdə təcəssüm olunur: istehsal texnologiyalarının yenilənməsi, idarəetmə sistemlərinin optimallaşdırılması və yeni maliyyələşdirmə alətlərinin tətbiqi. Müasir emal müəssisələri məhsuldarlığın yüksəldilməsi üçün ağıllı texnologiyalara, sensor sistemlərinə, robotlaşdırılmış emal xətlərinə və resurslara qənaət edən istehsal metodlarına investisiya etməkdə maraqlıdırlar. Bu investisiyalar daha aşağı istehsal xərcləri, daha yüksək keyfiyyət göstəriciləri və itkilərin minimuma endirilməsi ilə nəticələnir. İdarəetmə sahəsində isə ERP sistemləri, rəqəmsal monitorinq platformaları və blokçeyn əsaslı təchizat zənciri həlləri müəssisələrin daha şəffaf və çevik fəaliyyətinə imkan yaradır.

Cədvəl 2-də verilən məlumatlar göstərir ki, aqrar-emal müəssisələrində innovativ investisiya modelləri həm mikro, həm də makro səviyyədə təsir gücünə malikdir. Texnoloji modernizasiya müəssisələrin effektivliyini və rəqabət qabiliyyətini artırdığı halda, rəqəmsal idarəetmə sistemləri istehsal zəncirinin optimallaşdırılmasına şərait yaradır. Eyni zamanda yaşıl texnologiyalar müəssisələri qlobal ekoloji standartlara uyğunlaşdırır və davamlı inkişafı təmin edir. Yeni maliyyələşdirmə modelləri isə innovativ layihələrin reallaşmasını sürətləndirərək sektorda startap ekosisteminin formalaşmasına töhfə verir. Nəticədə aqrar-emal müəssisələri daha çevik, daha dayanıqlı və qlobal bazarlara çıxış imkanı olan iqtisadi subyektlərə çevrilir [7, s.34].

Aqrar-emal müəssisələrində innovativ investisiya modellərinin formalaşmasına təsir edən mühüm amillərdən biri də bazar tələbatının dəyişməsidir. Davamlı və ekoloji cəhətdən təmiz məhsullara olan tələbatın artması müəssisələri yaşıl texnologiyalara yönəldir. Bu isə alternativ enerji mənbələrindən istifadənin genişlənməsi, tullantıların təkrar emalı və karbon izinin azaldılması kimi sahələrə investisiya ehtiyacını artırır. Beləliklə, ekoloji yönümlü innovativ investisiya modelləri həm iqtisadi, həm də sosial məsuliyyət aspektində müsbət nəticələr doğurur.

Cədvəl 2

Aqrar-emal müəssisələrində innovativ investisiya modellərinin əsas istiqamətləri və gözlənilən təsirləri

İnnovativ investisiya istiqaməti	Tətbiq olunma forması	Gözlənilən iqtisadi təsirlər	Gözlənilən institusional və sosial təsirlər
Texnoloji modernizasiya	Robotlaşdırılmış emal xətləri, sensor monitorinq sistemləri, ağıllı avadanlıqlar	İstehsal xərclərinin azalması, məhsuldarlığın artması, itkilərin azalması	Qida təhlükəsizliyinin yüksəlməsi, şəffaflıq və keyfiyyətin yaxşılaşması
Rəqəmsal idarəetmə sistemləri	ERP, CRM, blokçeyn əsaslı təchizat zənciri tətbiqləri	Operativ idarəetmənin optimallaşması, logistika xərclərinin azalması	Təchizat zəncirində etibarlılıq və izlənilə bilirliyin artması
Yaşıl texnologiyalar və enerji səmərəliliyi	Günəş enerjisi, bioenerji, tullantıların təkrar emalı	Enerji xərclərinin azalması, ekoloji rüsumların qarşısının alınması	Karbon izinin azalması, davamlı istehsal mədəniyyətinin formalaşması
Yeni maliyyələşdirmə modelləri	PPP, təsir investisiyaları, risk kapitalı, aqrar-startaplar	İnovativ layihələrin daha sürətli maliyyələşməsi, yüksək gəlirlilik	Regionlarda məşğulluğun artması, startap ekosisteminin güclənməsi
Logistika və satış innovasiyaları	Ağıllı anbar sistemləri, rəqəmsal satış platformaları	Bazar genişlənməsi, satış sürətliliyinin artması	İxrac potensialının yüksəlməsi, istehlakçıların operativ təminatı

Mənbə: İnternet resursları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Yeni maliyyələşdirmə modelləri – dövlət-sahibkar tərəfdaşlığı (PPP), təsir investisiyaları (impact investment), risk kapitalı və aqrar-startapların dəstəklənməsi — aqrar-emal müəssisələrində innovasiyaların tətbiqini daha da sürətləndirir. Xüsusən aqrar-startap ekosisteminin inkişafı emal müəssisələrinin innovasiya potensialını genişləndirir və yeni texnoloji həllərin kommersiyalaşdırılmasını təşviq edir. Dövlətin subsidiyalar, vergi güzəştləri və güzəştli kreditləşmə mexanizmləri vasitəsilə bu prosesləri stimullaşdırması innovativ investisiya mühitinin formalaşmasında həlledici rol oynayır.

Ümumilikdə, aqrar-emal müəssisələrində innovativ investisiya modellərinin inkişaf meyilləri göstərir ki, gələcəkdə sektorda rəqabət üstünlüyü daha çox texnoloji yeniliklərdən, resursların səmərəli idarə edilməsindən və davamlı istehsal prinsiplərinə uyğun investisiya siyasətindən asılı olacaq. Bu baxımdan innovativ investisiya modelinin tətbiqi yalnız iqtisadi nəticələrə deyil, həm də müəssisələrin uzunmüddətli inkişaf strategiyalarına müsbət təsir göstərən həlledici amil kimi çıxış edir.

Nəticə

Yekun olaraq qeyd etmək lazımdır ki, aqroemal müəssisələrində investisiya siyasətinin innovativ modernləşdirilməsi Azərbaycanın kənd təsərrüfatının davamlı inkişafı üçün vacib amildir. Mənbə və xəttinə əsasən, modern investisiya modelinə keçid maddi-texniki bazanın yenilənməsinə, rəqabətqabiliyyətli məhsul istehsalına və innovativ yönümlü inkişaf strategiyasına xidmət etməlidir. Dövlət dəstəyi ilə yeni maliyyə mexanizmləri (vençur kapitalı, faktorinq və s.) təşviq edilməli, istehsalçı və emalçı müəssisələr üçün investisiya mühiti sadələşdirilməlidir. Aqropark və klaster modellərinin daha da genişləndirilməsi emal istehsalına həcmi artırmaq və ixrac bazarlarını diversifikasiya etmək imkanları açır. Həmçinin investisiyaların cəlb edilməsi üçün lisenziya-prosedurların asanlaşdırılması, ixrac dəstəyi və texnologiya transferi mexanizmləri gücləndirilməlidir. Bütün bunları nəzərə alaraq, aşaıdakı təklifləri irəli sürmək olar:

- Müasir maliyyə alətlərinin tətbiqinin stimullaşdırılması (vençur kapitalı, faktorinq və lizinq mexanizmlərinin genişləndirilməsi);
- Aqropark və regional emal klasterlərinin yaradılmasının dəstəklənməsi – dövlət-özəl tərəfdaşlığı əsasında inovasiya mərkəzlərinin təşkil olunması;
- İnvestisiya mühitinin yaxşılaşdırılması üçün inzibati maneələrin aradan qaldırılması, lisenziyalaşdırmanın sadələşdirilməsi və vergi güzəştlərinin fokuslaşdırılması;
- İxrac imkanlarının artırılması və idxal əvəzləyici emal məhsullarının istehsalına dəstəyin gücləndirilməsi (keyfiyyət standartlarına uyğunluq, markalaşma proqramları, dövlət-özəl təşəbbüslərlə bazara çıxış);
- Kadr potensialının inkişafı üçün fermer və emal müəssisəsi işçilərinə innovativ təlimlər təşkil edilməli, elmi-tədqiqat infrastrukturu və texnoloji inkubatorlar yaradılmalıdır;
- Aqrar sığorta və kredit təminat mexanizmləri kimi risk idarəetmə alətləri genişləndirilərək investisiyalara qarşı risklər azaldılmalıdır.

Bu tədbirlər tətbiq edildikdə, aqroemal sektorunda investisiyaların çevik idarə olunması və innovativ yanaşmaların tətbiqi məhsuldarlığı yüksəldəcək, emal sənayesinin dayanıqlılığı təmin ediləcək və ölkənin iqtisadi potensialı daha səmərəli realizə olunacaq.

ƏDƏBİYYAT

1. Əsədov, R. (2021). Kənd təsərrüfatı emalı müəssisələrində innovativ idarəetmə yanaşmaları. Bakı: "Elm və Təhsil".
2. Əliyev, N. (2020). Aqrar sektorun modernləşdirilməsində investisiya siyasətinin rolu. Bakı: Qrafik Dizayn.
3. FAO (2018). Agribusiness Development and Investment Strategies. Rome: FAO Publication Unit.
4. Məmmədova, S. (2022). Aqrar emal müəssisələrində investisiya qərarlarının optimallaşdırılması. Gəncə: ADAU nəşriyyatı.
5. OECD (2020). Innovation, Productivity and Sustainability in Food and Agriculture. Paris: OECD Publishing.
6. Porter, M. (1990). The Competitive Advantage of Nations. London: Macmillan.
7. Поляков, И.В. (2019). Инновационная модернизация агропромышленного комплекса: механизмы инвестирования. Москва: Экономика.

Фарук Хамза оглы Зиядов
Азербайджанский Университет Кооперации, докторант

Инновационная модернизация инвестиционной политики на предприятиях сельскохозяйственной переработки

Резюме

Цель исследования: Определить пути формирования инновационно-инвестиционной политики в агроперерабатывающих предприятиях и повышения её эффективности.

Методология работы: В исследовании использованы аналитический анализ, сравнительный метод, системный подход и методы практического структурирования данных.

Прикладная значимость исследования: Результаты исследования могут быть применены при принятии инвестиционных решений в сфере агропереработки и формировании государственной политики.

Результаты исследования: Установлено, что инновационные финансовые инструменты, государственно-частное партнёрство и технологическая модернизация значительно повышают конкурентоспособность и экспортный потенциал перерабатывающих предприятий.

Оригинальность и научная новизна исследования: В исследовании представлен первый в Азербайджане систематизированный на научной основе концептуальный подход к инновационно-инвестиционной политике в агроперерабатывающем секторе.

Ключевые слова: инновационное финансирование, агропереработка, инвестиционная политика, технологическая модернизация.

Farug Hamza Ziyadov
Azerbaijan University Of Cooperation, PhD-student

Innovative modernization of investment policy in agricultural processing enterprises

Summary

The purpose of the study: To determine the ways of forming an innovative investment policy in agricultural processing enterprises and increasing the effectiveness of this policy.

The methodology of the work: The study used analytical analysis, comparative method, system approach and practical data structuring methods.

The applied importance of the research: The results of the study can be applied in making investment decisions in the field of agricultural processing and in the formation of state policy.

The results of the research. It was determined that innovative financial instruments, public-private partnership and technological modernization significantly increase the competitiveness and export potential of processing enterprises.

The originality and scientific novelty of the research. The study presents the first conceptual approach of innovative investment policy in the agro-processing sector in Azerbaijan, systematized on scientific grounds.

Key words: innovative finance, agro-processing, investment policy, technological modernization.

UOT 004.3

Gülsüm Şamil qızı BƏDİRZADƏ
Azərbaycan Kooperasiya Universitetinin
"Kompüter mühəndisliyi və informasiya texnologiyaları"
kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent
https://doi.org/10.30546/4.71.73001.2026.005.032

AZƏRBAYCANIN RƏQƏMSAL İQTİSADİYYATININ MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Tədqiqatın əsas məqsədi - ölkədə rəqəmsallaşmanın iqtisadi və sosial göstəricilərə təsirini müəyyənləşdirmək və bu sahənin inkişaf perspektivlərini qiymətləndirməkdir.

Tədqiatın metodologiyası kimi deskriptiv-statistik analiz və normativ sənədlərin təhlili üsullarından istifadə olunmuşdur. Məqalədə elektron hökumət, elektron ticarət, rəqəmsal bankçılıq, rəqəmsal bacarıqlar və İKT infrastrukturu üzrə rəsmi statistika əsasında ətraflı təhlil aparılmış, rəqəmsal iqtisadiyyatın institusional və texnoloji əsasları müəyyən edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr rəqəmsal iqtisadiyyat siyasətinin formalaşdırılması və regionlar üzrə rəqəmsal bərabərsizliyin azaldılması sahəsində qərar qəbul edənlər üçün analitik baza yaradır.

Tədqiqatın nəticələri göstərir ki, ölkədə rəqəmsal transformasiya sahəsində mühüm irəliləyişlərə baxmayaraq, internetə çıxışda bölgələrarası qeyri-bərabərlik, rəqəmsal savadlılıq və kibertəhlükəsizlik kimi problemlər aktual olaraq qalır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi ondan ibarətdir ki, mövzuya dair müxtəlif rəsmi statistika və strateji sənədlər vahid analitik çərçivədə sintez olunaraq sistemli yanaşma ilə təqdim edilir. Bu, Azərbaycanın rəqəmsal iqtisadiyyat modelinin kompleks qiymətləndirilməsinə, mövcud problemlərin aşkarlanmasına və onların aradan qaldırılması istiqamətində elmi əsaslandırılmış strateji qərarların verilməsinə imkan yaradır.

Açar sözlər: rəqəmsallaşma, rəqəmsal iqtisadiyyat, İKT, süni intellekt (Sİ), elektron hökumət, rəqəmsal transformasiya, Azərbaycan, statistika, rəqəmsal savadlılıq.

Giriş

XXI əsrin ilk onilliklərində rəqəmsal texnologiyaların iqtisadiyyata inteqrasiyası qlobal miqyasda struktur dəyişikliklərinə səbəb olmuşdur. Bu kontekstdə "rəqəmsal iqtisadiyyat" anlayışı yeni iqtisadi paradiqmanın əsas dayağına çevrilmişdir. İnformasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində əldə olunan nailiyyətlər milli iqtisadi sistemlərin rəqabət qabiliyyətinə, innovasiya potensialına və sosial inklüzivliyə birbaşa təsir göstərmişdir. Azərbaycan Respublikasında da rəqəmsal iqtisadiyyatın təşəkkülü və inkişafı son illərdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Dünyada gedən qloballaşma proseslərinə inteqrasiya şəraitində Azərbaycan Respublikasında da informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı nəticəsində rəqəmsal iqtisadiyyat qlobal səviyyədə iqtisadi fəaliyyətin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Rəqəmsallaşma yalnız iqtisadi münasibətlərin formasını deyil, həm də istehsal, paylama və istehlak modellərini köklü şəkildə dəyişmişdir. Azərbaycan Respublikasında da rəqəmsal iqtisadiyyatın formalaşması və inkişafı artıq dövlət siyasətinin əsas prioritetlərindən biri olaraq qəbul olunmuşdur.

Azərbaycanın milli iqtisadiyyatında rəqəmsal transformasiyanın başlıca istiqamətləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" [2, s.3-5] və "Rəqəmsal Transformasiya Konsepsiyası" [3, s.12-18] kimi strateji sənədlərdə əks olunmuşdur. Bu sənədlərdə rəqəmsallaşma iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, dövlət idarəçiliyinin səmərəliliyinin yüksəldilməsi və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması kimi əsas məqsədlərlə əlaqələndirilir.

Azərbaycanda rəqəmsal iqtisadiyyatın müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi

Rəqəmsal iqtisadiyyat – məhsul və xidmətlərin istehsalı, paylanması və istehlakında rəqəmsal texnologiyaların tətbiqini nəzərdə tutur. Dünya Bankının hesabatına görə, 2021-ci ildən etibarən rəqəmsal iqtisadiyyat artıq bəzi ölkələrdə ÜDM-in 10-15%-ni təşkil edir. Və bu rəqəm artmaqda davam edir. Rəqəmsallaşma ölkələrin rəqabət üstünlüyünü, investisiya mühitini və texnoloji suverenliyini müəyyən edən əsas faktorlardan biri kimi qiymətləndirilir.

Bu baxımdan Azərbaycan da istisna deyil və dünyada baş verən proseslərdən kənarda qala bilməz. Son illərdə ölkədə rəqəmsal iqtisadiyyatın inkişafı sahəsində bir sıra tədbirlər həyata keçirilmiş, bir çox islahatlar aparılmışdır. Azərbaycan rəqəmsal iqtisadiyyatın inkişafını milli strateji sənədlərdə təsbit etmişdir. Bu sahədə əsas sənədlərə misal olaraq “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, “2022–2026-cı illər üçün Rəqəmsal Transformasiya Strategiyası”, “Rəqəmsal inkişaf və Nəqliyyat Nazirliyinin yol xəritələri”ni göstərə bilərik. Sözügedən sənədlərdə rəqəmsal hökumət, elektron xidmətlər, rəqəmsal maliyyə və innovasiya yönümlü startap ekosistemlərinin inkişafı prioritet kimi müəyyən edilib. Azərbaycanda rəqəmsallaşma istiqamətində aparılan siyasətin əsasını “Rəqəmsal transformasiya strategiyası” təşkil edir. Bu sənəd ölkədə elektron hökumət xidmətlərinin genişləndirilməsini, biznesin rəqəmsal platformalara inteqrasiyasını, həmçinin rəqəmsal infrastrukturun inkişafını prioritetləşdirir.

Azərbaycanın rəqəmsal iqtisadiyyat sahəsində uğurlarından biri də elektron hökumət **(“e-Gov”)** modelinin tətbiqidir. Bu sahədə atılmış əsas addımlardan biri də **“ASAN xidmət”** modelinin yaradılması və geniş tətbiqidir. ASAN xidmət, “ASAN ödəniş” sistemi, elektron gömrük və elektron vergi xidməti kimi təşəbbüslər rəqəmsal dövlət modelinin təməlini qoyaraq, vətəndaşların və biznes subyektlərinin dövlət orqanları ilə əlaqəsini xeyli sadələşdirmişdir. Bu model elektron hökumət xidmətlərinin təşkili və rəqəmsal dövlətin əsas komponentlərinin formalaşdırılması baxımından nümunəvi bir təcrübə hesab olunur. [7, s.48] “ASAN xidmət” 10 ildən artıqdır ki, fəaliyyət göstərir və 2024-cü ilə qədər 60 milyondan artıq vətəndaş müraciətinə xidmət göstərmişdir. Hazırda əhalinin əksəriyyəti müxtəlif ictimai xidmətlərə onlayn şəkildə çıxış əldə edə bilir ki, bu da vaxt və resursların qənaəti ilə yanaşı, şəffaflığı və vətəndaş məmnunluğunu artırır.

Eyni zamanda, **“Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS)”**, **“myGov”**, **“e-Sosial”**, **“Məlumatların emalı və analitikası platforması (MEaP)”** kimi platformalar müxtəlif sahələrdə rəqəmsal idarəetmənin tətbiqini təmin edir. “MyGov” portalı – 5 milyondan artıq istifadəçiyə malikdir. “E-Sosial” sistemi isə – əmək və sosial müdafiə sahəsində rəqəmsallaşmanın əsas platforması kimi çıxış edir.

Bundan əlavə, Azərbaycanda **elektron ticarət**, **rəqəmsal bankçılıq**, **fintech xidmətləri**, **startap ekosistemi** və **bulud texnologiyaları** kimi sahələrdə də nəzərəçarpacaq irəliləyişlər müşahidə olunur. Xüsusilə, pandemiya dövründə elektron ticarətin həcminin artması, sahibkarların onlayn platformalara inteqrasiyası və mobil ödəmə sistemlərinin geniş yayılması rəqəmsallaşmanın sürətləndiyini göstərir.

Bu sistemlər sayəsində dövlət-vətəndaş münasibətləri daha şəffaf və çevik hala gəlmişdir.

“Yaşıl iqtisadiyyat”ın tərəfdarları hesab edirlər ki, mövcud iqtisadi sistem böhranlar və bazar uğursuzluqlarının sübutu kimi qüsurludur və mahiyyətcə israfçılıqdır. Ümumilikdə insanların, xüsusən də müəyyən qrupların həyat səviyyəsinin yüksəldilməsində müəyyən nəticələr versə də, onun fəaliyyətinin mənfi nəticələri əhəmiyyətlidir: ekoloji problemlər, təbii kapitalın tükənməsi, geniş yayılmış yoxsulluq, şirin su, ərzaq, enerji çatışmazlığı, insanların və ölkələrin bərabərsizliyi. Bütün bunlar gələcək nəsillər üçün təhlükə yaradır.

Dünyanın aparıcı iqtisadiyyatlarının 2050-2060-cı illərdə, o cümlədən Azərbaycanda “karbon sıfıra” nail olmaq qərarı əslində aşağı karbonlu yaşıl iqtisadiyyata iqtisadi keçid deməkdir. Ölkəmizin 2050-ci ilə qədər ən uzunmüddətli inkişaf strategiyası belə bir keçidlə bağlıdır (“2050-ci ilə qədər istixana qazlarının aşağı salınması ilə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı Strategiyası”).

Avropa Birliyi 2030-2050-ci illərədək “yaşıl”, aşağı karbonlu, dairəvi və bioiqtisadiyyatın inkişafı üçün konkret məqsədlər, kəmiyyət göstəriciləri və onların dəstəklənməsinə yönəlmiş mexanizmlərlə strategiyalar qəbul etmişdir [4].

2019-cu ilin dekabrında Avropa Komissiyası iddialı layihəni, Avropa Yaşıl Sövdələşməsini qəbul etdi ki, bu layihə Avropa iqtisadiyyatını aşağı karbonlu iqtisadiyyat formalaşdırmaq, istixana qazı emissiyalarını azaltmaq və karbon neytrallığına nail olmaq üçün köklü şəkildə dəyişdirməlidir. Belə bir planın həyata keçirilməsinin bütün genişmiqyaslı nəticələrini proqnozlaşdırmaq çətindir, xüsusən artan qlobal turbulentlik kontekstində, lakin ixrac tarifləri, rüsumlar, vergilər, standartlar, cərimələr və s. şəklində müxtəlif növ ekoloji maneələrin və məhdudiyyətlərin kəskin artması səbəbindən ixracatçılar üçün risklərin artması göz qabağındadır.

- ekoloji davamlılıq, iqtisadiyyatın "yaşıllaşdırılması", yeni iqtisadi modellər;
- tərəqqinin ölçülməsinə yeni yanaşmalar (davamlı inkişafın göstəriciləri);
- sosial oriyentasiya (insan potensialı) (ilk növbədə sağlamlıq);
- BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi;
- ətraf mühitə minimal təsir göstərən bilik tutumlu, yüksək texnologiyalı, istehsal və infrastruktur sahələrinin inkişafında prioritet olmaqla yeni texnoloji nizama keçid;
- iqtisadi qərarlarda təbii kapitalın və ekosistem xidmətlərinin adekvat dəyərinin nəzərə alınması;
- sərhədləşmə (decoupling) effekti: təbii resurs intensivliyinin və çirklənmə intensivliyinin kəskin azalması;
- ətraf mühitin çirklənməsinin azaldılması;
- istixana qazlarının emissiyalarının azaldılması, karbon neytrallığına çalışmaq;
- iqtisadiyyatda təbiətdən istifadə edən sahələrin payının azalması;
- enerji səmərəliliyinin kəskin artması;
- mənfi ekoloji xarici təsirlərin daxililəşdirilməsi.

Bu baxımdan dünyada "yaşıl iqtisadiyyat"ın inkişafı prosesini daha ətraflı nəzərdən keçirmək və yaxın onilliklərdə beynəlxalq iqtisadi əlaqələrin inkişafına təsir göstərə biləcək dəyişiklikləri müəyyən etmək vacib görünür.

"Yaşıl İqtisadiyyat" ideyası 2008-ci ildə UNEP tərəfindən ekoloji cəhətdən təmiz istehsala sərmayə qoymaqla dünya iqtisadiyyatını böhrandan çıxarmaq məqsədi ilə formalaşdırılıb. "Yaşıl iqtisadiyyat"ın inkişafının əsas istiqamətləri üzrə müvafiq ekspert tövsiyələrini özündə əks etdirən "Yeni Qlobal Yaşıl Sövdələşmə" hesabatı UNEP-in sifarişi ilə hazırlanmışdır. Daha sonra yaşıl iqtisadiyyat strategiyası BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində hazırlanmışdır: Dünya Bankı, OECD, G7 və G20, regional inteqrasiya qrupları və s.

Başqa sözlə, "yaşıl iqtisadiyyat"a istehsalın səmərəliliyinin artırılması ilə birlikdə həyat keyfiyyətinin və ətraf mühitin yaxşılaşdırılmasına töhfə verən bütün iqtisadi fəaliyyətlər daxildir.

Resurslara tələbatın qlobal artımı həm əhalinin ümumi artımı, həm istehlakçıların sayının artması, həm də qlobal istehlaka artan töhfə verən bir çox inkişaf etməkdə olan ölkələrdə həyat səviyyəsinin yaxşılaşması ilə əlaqələndirilir. Əgər dünya əhalisi proqnozlaşdırıldığı kimi artmaqda davam edərsə və 2050-ci ilə qədər 9,7 milyard nəfərə çatarsa, o zaman hazırkı həyat tərzini saxlamaq üçün Yer planetinə ekvivalent olan 3 planetin təbii resursları tələb oluna bilər [5].

Hazırda "qəhvəyi iqtisadiyyat"dan "yaşıl iqtisadiyyat"a keçidin zəruriliyi ilə bağlı beynəlxalq konsensus mövcuddur. Xüsusilə 2015-ci il Paris İqlim Sazişinin dünyanın demək olar ki, bütün ölkələri (186 ölkə və Avropa İttifaqı) tərəfindən ratifikasiya olunması buna sübutdur. Bununla belə, "yaşıl iqtisadiyyat" strategiyasının yüksək inkişaf sürətinə və həyata keçirilməsinə baxmayaraq, dünyada ekoloji vəziyyət yüksək sürətlə pisləşir.

Beləliklə, dünya ölkələri tərəfindən yaşıl iqtisadiyyata keçidin əhəmiyyətinin dərk edilməsi bu konsepsiyanın ayrı-ayrı milli iqtisadiyyatlar daxilində eyni dərəcədə uğurla həyata keçirilməsinə təminat vermir. Milli iqtisadiyyatlarda "yaşıl inkişaf"ın həyata keçirilməsi prosesini ləngidən bir neçə əsas problem müəyyən edilə bilər.

Birincisi, bir çox inkişaf etməkdə olan ölkələrin enerji istehlakında karbohidrogenlərin kifayət qədər yüksək payı var. Belə ki, Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, 2024-cü ildə Yaxın Şərqdə enerji istehlakında karbohidrogenlərin payı 99,1%, Afrikada 52,2%, Asiya-Sakit okean

regionunda isə 84,4% təşkil edib. Karbohidrogenlərdən belə yüksək asılılıq şəraitində bu regionlardakı ölkələrin bərpa olunan enerji mənbələrinə sürətlə keçməsi əlbəttə ki, asan olmayacaq [6].

İkincisi, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı çox vaxt əsas sənaye sahələrinə (metallurgiya, kimya, tikinti materialları və s.) əsaslanır ki, bu da daha yüksək karbon izi ilə əlaqəli təbii ehtiyatların ilkin emalına əsaslanır.

İnkişaf etməkdə olan iqtisadiyyatlardan fərqli olaraq, inkişaf etmiş ölkələrdə əsas fəaliyyət sahələri yüksək əlavə dəyərə malik və ətraf mühitə daha az təsir göstərən əmtəə və xidmətlərin istehsalıdır.

Beləliklə, inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlarda iqtisadiyyatın sahə strukturunda əhəmiyyətli fərqlər mövcuddur. Bu fərqlər həm də onunla əlaqədardır ki, son qırx il ərzində inkişaf etmiş ölkələrin şirkətləri enerji və resurs tutumlu istehsalı inkişaf etməkdə olan ölkələrə köçürür, öz ərazilərində atmosferə nisbətən az karbon emissiyası ilə daha yüksək əlavə dəyərli istehsal buraxır. Bu proses bir sıra inkişaf etməkdə olan iqtisadiyyatların istehsal və ixrac strukturunda yüksək karbon izi olan məhsulların payının artmasına səbəb olmuşdur. Məsələn, inkişaf etməkdə olan iqtisadiyyatlar 2024-cü ildə qlobal polad istehsalının 68%-dən çoxunu təşkil edib. Bu da yüksək karbon izi ilə ənənəvi əmtəədir.

Üçüncüsü, bir çox inkişaf etməkdə olan ölkələr üçün istehsalı böyük karbon emissiyaları yaradan məhsulların ixracı ölkənin ÜDM-nə mühüm töhfə verir və onların iqtisadiyyatlarının inkişafı üçün vacibdir. Məsələn, Nigeriya neft ixrac edən ölkədir və 27-ci əmtəə qrupunun (mineral yanacaqlar, neft və onların distillə edilməsi məhsulları; bitumlu maddələr; mineral mumlar) töhfəsi 2024-cü ildə Nigeriyanın ümumi ixrac dəyərinin 88,7%-ni təşkil etmişdir. Digər misal olaraq Qazaxıstan, həm də karbohidrogenlərin payını fəal şəkildə ixrac edir. Eyni ildə 58,2% təşkil edib [7].

Bununla belə, Qazaxıstan karbohidrogenlərdən əlavə, metal filizlərini aktiv şəkildə hasil edir və emal edir. 2024-cü ildə ölkə üzrə 27, 72, 26 və 74-cü qruplar üzrə ixracın ümumi dəyəri 77,6 faiz təşkil edib. Digər misal, 2020-ci ildə ixracı 73,5% 74-cü qrup məhsulların (mis və ondan məmulatlar) satışı hesabına formalaşan Zambiyadır. Bu əmtəə qruplarında mallara qlobal tələbatın azalması və ya bu növ məhsulların istehsalı və ya ticarətinə qoyulan hər hansı məhdudiyyət, şübhəsiz ki, xüsusilə yaşıl inkişafa keçidin birinci mərhələsində bir çox inkişaf etməkdə olan iqtisadiyyatların inkişafı üçün problemlər yaradacaq və onları dünyada mövcud olan texnoloji nailiyyətlərdən asılı vəziyyətə salacaqdır.

Dördüncüsü, inkişaf etməkdə olan ölkələrin əksəriyyəti hələ də inkişafın aqrar-sənaye mərhələsində olduğuna görə öz iqtisadiyyatlarını yaşıl inkişaf standartlarına uyğunlaşdırmaq üçün çox qısa müddətə malikdirlər. Nəzərə almaq vacibdir ki, tullantıların ən yüksək olduğu illə onların xalis sıfır olduğu il arasındakı interval Aİ üçün 71 il, Böyük Britaniya üçün 77 il, Yaponiya üçün 46 il olacaqdır. Hətta Çin 2030-cu ildə tullantıların pik həddinə çatarsa, elan etdiyi 2060-cı ilə qədər 30 illik keçid dövrü olacaq [2]. Eyni zamanda, məsələn, Hindistan BMT-nin 2050-ci ilə qədər tullantıların sıfır səviyyəsinə çatması ilə bağlı mövqeyi ilə tam razılaşarsa, cəmi 20 illik keçid dövrü olacaq. Bu məsələnin əhəmiyyəti və mürəkkəbliyi bir faktla təsdiqlənir ki, BMT-nin Baş katibi Antonio Quterreş 2021-ci ilin iyulunda Neapolda keçirilən G20 İqlim və Enerji Nazirləri Toplantısında qrupa daxil olan bütün ölkələrin 2050-ci ilə qədər xalis sıfır emissiyaya nail olmaq öhdəliyi götürdüyü zaman, 2013-cü ilə qədər tullantıların azaldılmasına dair vahid razılaşmaya hələ də nail olmaq mümkün olmayıb.

“Yaşıl iqtisadiyyat”a keçid əmək bazarına əhəmiyyətli və kifayət qədər ziddiyyətli təsir göstərəcək. Ölkələrin yaşıl iqtisadiyyata keçidi prosesində yarana biləcək yeni iş yerlərinin mümkün sayı ilə bağlı müxtəlif hesablamalar mövcuddur. Beynəlxalq Əmək Təşkilatının hazırladığı proqnoz maraqlı görünür. BƏT-in hesablamalarına görə, yaşıl inkişafa yönəlmiş səlahiyyətli siyasət 2030-cu ilə qədər təxminən 18 milyon iş yeri yaradacaq.

Bu halda iki paralel proses müşahidə olunacaq: iş yerlərinin yaradılması (24 milyon) və bağlanması (6 milyon).

Ən çox iş yerləri bərpa olunan enerji sektorunda, istehsalatda və tikintidə yaradılacaq. Səna-

yelərarası əlaqələr sayəsində xidmət sektorunda, tullantıların idarə olunmasında və kənd təsərrüfatında məşğulluq artacaq. İş yerlərində ən böyük azalma kömür və neft hasilatı və emalı sektorlarında gözlənilir.

Dünyanın ayrı-ayrı regionları arasında iş yerlərinin dinamikasında əhəmiyyətli fərqlər müşahidə olunacaq. Beləliklə, Amerika qitəsində, Asiya-Sakit Okean regionunda və Avropada iş yerlərində xalis artım müşahidə olunacaq, burada artım müvafiq olaraq təxminən 3, 14 və 2 milyon iş yeri təşkil edəcək. Bunun əksinə olaraq, Yaxın Şərqdə (300 mindən çox iş yeri) və Afrikada (təqribən 300 min iş yeri) iş yerlərində xalis azalma müşahidə olunacaq [3].

Azərbaycan iqtisadiyyatının “yaşıllaşdırılmasını” sürətləndirmək üçün ekspertlər aşağıdakıları təklif edir:

- əhalini ətraf mühitin deqradasiyasının əsas səbəbləri haqqında məlumatlandırmaq məqsədi daşıyan təhsil layihələrinə üstünlük verilməlidir;
- ətraf mühitin dövlət idarəçiliyinin keyfiyyətinin yüksəldilməsi istiqamətində işlər aparılmalıdır (burada real iqtisadi stimulların yaradılması məqsədəuyğun görünür);
- diqqəti çirklənməyə görə vergilərə yönəltmək, həmçinin “karbon qiyməti”ni tətbiq etmək üçün vergi sistemində islahatlar aparmaq lazımdır (bu, qabaqcıl aşağı karbonlu texnologiyaların tətbiqinə təkan verəcək);
- “yaşıl” dövlət satınalmaları siyasəti ekoloji cəhətdən təmiz məhsulların istehsalını və davamlı inkişaf prinsiplərinə uyğun istehsal üsullarından istifadəni təşviq etməlidir;
- “ənənəvi” sənaye sahələrinin texniki yenidən təchiz edilməsinin maliyyələşdirilməsi ilə paralel olaraq “yaşıl” infrastruktura (o cümlədən ictimai nəqliyyat, bərpa olunan enerji mənbələri, enerjiyə qənaət edən binaların tikintisi) dövlət investisiyalarının artırılması;
- təsərrüfat subyektlərinin ətraf mühitə təsiri haqqında məlumatları və korporativ ekoloji monitorinq məlumatlarını açıqlamaq;
- səmərəsiz subsidiyalardan imtina da daxil olmaqla, davamlı inkişaf prinsiplərinə uyğun qiymətlərin müəyyən edilməsi zəruridir.

Təklif olunan tədbirlərin həyata keçirilməsi təkcə Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətini və həyat keyfiyyətini artırmayacaq, həm də aşağı karbonlu davamlı inkişaf trayektoriyasına daxil olmağa kömək edəcək və “yaşıl iqtisadiyyat”ın qlobal məqsədlərinə nail olunmasına mühüm töhfə verəcək. Azərbaycanın iqtisadi inkişafının yaşıllaşdırılması emal edilmiş təbii ehtiyatların yüksək payı olan məhsulların ixracının diversifikasiyasına və artmasına və ölkə şirkətlərinin xarici bazarlarda rəqabət qabiliyyətinin artmasına kömək edəcəkdir.

Nəticə

Beləliklə, deyə bilərik ki, söhbət dünya iqtisadiyyatının iqtisadi strukturunun əsaslı transformasiyasından, istehsal fəaliyyətinin və ümumilikdə insanların həyatının transformasiyasından gedir. Aydındır ki, bütün bazarlarda və iqtisadiyyatın bütün sahələrində dəyişikliklər baş verəcək. Ayrı-ayrı milli iqtisadiyyatlarda həm istehsal strukturu, həm də tələb strukturu dəyişəcək. Bu cür dəyişikliklər istər-istəməz ölkələr arasında iqtisadi əlaqələrə təsir edəcək, müasir beynəlxalq ticarətin strukturunu və profilini dəyişdirəcəkdir.

Beynəlxalq ticarətin gələcəkdə transformasiya oluna biləcəyi istiqamətə misal olaraq Avropa Komissiyasının 14 iyul 2021-ci ildə təqdim etdiyi Avropa Yaşıl Sövdələşməsidir. Avropa Yaşıl Sazişi 1990-cı il səviyyələri ilə müqayisədə 2030-cu ilə qədər atmosferə zərərli emissiyaların 55% azaldılmasını nəzərdə tutur [1].

Karbon neytrallığına nail olmaq üçün tədbirlərdən biri daha çox sərhədlərarası karbon tənzimlənməsi (CCAR) kimi tanınan Karbon Sərhədinin Tənzimlənməsi Mexanizmidir (CBAM). Onun mahiyyəti ondan ibarətdir ki, Aİ-yə idxal edildikdə yüksək karbon izi olan idxal mallarından rüsum alınacaq. Belə məhsulların siyahısına alüminium, dəmir, polad, gübrə, sement və elektrik enerjisi daxildir. Məbləği idxal olunan konkret məhsulun karbon izinin həcmindən asılı olaraq hesablanacaq rüsumlar 2023-cü ildən 2026-cı ilə qədər mərhələli şəkildə tətbiq ediləcək. Formal olaraq,

transsərhəd karbon tənzimlənməsi mexanizmi Avropa istehsalçılarının məhsullarının ekoloji təmizliyini yaxşılaşdırmaq və atmosferə CO2 emissiyalarını azaltmaq üçün xərclərini kompensasiya etmək üçün nəzərdə tutulub. Bununla belə, Aİ iqtisadiyyatının yüksək texnoloji strukturunu nəzərə alsaq, görünür, TUR mexanizmi əsasən xarici təchizatçılarla müqayisədə Avropa istehsalçılarının rəqabət qabiliyyətini qorumaq və saxlamaq üçün istifadə olunacaq.

Xüsusi vurğulamaq vacibdir ki, CO2 emissiyalarının ölkələr üzrə bölgüsü ilə bağlı mövcud vəziyyət XX əsrin ikinci yarısında yaranmış beynəlxalq əmək bölgüsünün nəticəsidir ki, bunun nəticəsində inkişaf etmiş iqtisadiyyatlar, o cümlədən Aİ məhsulun emalının yüksək texnologiyalı, resurstutumlu olmayan mərhələlərinə diqqət yetirə bilmişlər.

2021-ci ildə müzakirə edilən TUR mexanizmi Aİ-nin müxtəlif tərəfdaş ölkələrində karbon emissiyaları ilə bağlı mövcud vəziyyətə əsaslanır. Lakin belə yanaşma nəzərə almır ki, öz iqtisadiyyatlarının tarixi inkişafı zamanı sənayeləşmə mərhələsini keçən inkişaf etmiş ölkələr artıq planetin ekologiyasının pisləşməsinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərən nəhəng CO2 emissiyaları yaratmışlar.

Beləliklə, demək olar ki, “yaşıl iqtisadiyyat”a keçid artıq aydın şəkildə müəyyən edilmiş inkişaf tendensiyasıdır. Qlobal iqtisadiyyatda ölkələrin rəqabət qabiliyyəti əsasən ölkələrin yaşıl inkişafa doğru hərəkətlərini nə dərəcədə yaxşı təşkil edə bilmələri ilə müəyyən ediləcək. “Yaşıl inkişaf”a keçid təkcə yeni ekoloji təmiz texnologiyaların yaradılmasını deyil, həm də müddəaları əhatə edən və dünyanın bütün ölkələrinin və regionlarının iqtisadiyyatlarının inkişafı ehtiyaclarını nəzərə alan milli və beynəlxalq səviyyədə ekoloji qanunvericiliyin işlənib hazırlanmasını tələb edəcəkdir. Bu baxımdan, hər bir ölkənin qarşısında həm yaşıl artıma keçid strategiyasını hazırlamaq, həm də xarici iqtisadi əlaqələrdə mövcud olan imkan və məhdudiyyətləri əsaslandırmaq üçün zəruri olan iqtisadiyyatının “yaşıl” transformasiyası məsələlərinin hərtərəfli öyrənilməsi vəzifəsi durur.

ƏDƏBİYYAT

1. Hüseynova X. “Yaşıl iqtisadiyyat” nədir? Bakı, 2022. URL: https://azertag.az/xeber/yasil_iqtisadiyyat_nedir-2333990
2. Məmmədov T. “Yaşıl iqtisadiyyat” əhəmiyyəti. Bakı, 2024. URL:https://www.economy.gov.az/az/page/yasil-iqtisadiyyat
3. Бобылев С.Н. Зеленая экономика как базис устойчивого развития. М., 2024. https://books.econ.msu.ru/economics-of-sustainable-development/sect01/chap02/2.4/
4. Бобылев С.Н. Зеленая экономика как базис устойчивого развития. М., 2024. https://books.econ.msu.ru/economics-of-sustainable-development/sect01/chap02/2.4/
5. Невская А. Зеленая экономика. М., 2024. URL: https://znanierussia.ru/library/video/zelenaya-ekonomika-vozmozhnosti-i-ogranicheniya-1298
6. Елена Б. Р. Зеленая экономика и ее влияние на экономическое развитие в XXI веке. М., 2023. https://journal.vavt.ru/rfej/article/view/211
2. Рогатных Е. Зеленая экономика и ее влияние на экономическое развитие в XXI веке. М., 2022. URL: https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=4099535

доц., д.ф.э., Кямаля Халил кызы Юсифова
Азербайджанский Университет Языков
E-mail: yusifovakemale38@gmail.com

“Зеленая экономика” и ее влияние на экономическое развити

Резюме

Целью исследования является совершенствование характеристики влияния «зеленой экономики» на экономическое развитие, подготовка теоретических и методических положений и предложений по ее эффективной организации.

Методология исследования - использовались анализ в форме формы, сравнительный анализ, научное абстрагирование и другие методы экономико-статистического анализа. Также были сделаны ссылки на научные труды исследователей, проводивших исследо-

вания по проблемам экологии и охраны окружающей среды.

Прикладная значимость исследования заключается в том, что проводимые в этом направлении исследования способствуют формированию экономической политики для обеспечения устойчивого развития, эффективного использования природных ресурсов и защиты экологической безопасности. В данном исследовании также показаны практические пути установления баланса между экономическим ростом и охраной окружающей среды.

Результаты исследования показывают, что продвижение зеленой экономики, помимо обеспечения долгосрочного экономического роста, создает условия для поддержания экологического равновесия и более эффективного использования ресурсов. При этом данная модель сопровождается положительными экономическими эффектами, такими как инновации, создание новых рабочих мест и увеличение инвестиционных потоков. В текущий период и в перспективе имеются возможности использования научных положений и предложений, содержащихся в статье, при разработке механизмов либерализации энергетического сектора.

Оригинальность и научная новизна исследования заключается в том, что в нем анализируется интеграция экологически устойчивых экономических моделей в национальные стратегии развития и на эмпирической основе раскрывается влияние зеленой экономики на конкретные макроэкономические показатели. Такой подход вводит новую научную перспективу за счет включения экологических измерений в существующие теории экономического развития.

Ключевые слова: развитие, «зеленая экономика», экология, окружающая среда, загрязнение, глобальные проблемы.

Kamala Khalil Yusifova
as.pr., Ph.D., Azerbaijan University of Languages
E-mail: yusifovakemale38@gmail.com

“Green economy” and its impact on economic development

Summary

The purpose of the research is to improve the characteristics of the impact of the "Green Economy" on economic development, to prepare theoretical and methodological provisions and proposals for its effective organization.

The methodology of the research - analysis in the form of form, comparative analysis, scientific abstraction and other economic and statistical analysis methods were used. Reference was also made to the scientific works of researchers who have conducted research on ecology and environmental problems.

The applied significance of the research is that the research conducted in this direction contributes to the formation of economic policy for ensuring sustainable development, efficient use of natural resources and protection of environmental safety. This research also shows practical ways to establish a balance between economic growth and environmental protection.

The results of the research show that the promotion of the green economy, in addition to ensuring long-term economic growth, creates conditions for maintaining ecological balance and more efficient use of resources. At the same time, this model is accompanied by positive economic effects such as innovation, creation of new jobs and increase in investment flows. In the current period and in the future, there are opportunities to use the scientific provisions and proposals contained in the article in the development of mechanisms for liberalizing the energy sector.

The originality and scientific novelty of the study is that this study analyzes the integration of environmentally sustainable economic models into national development strategies and reveals the impact of the green economy on specific macroeconomic indicators on an empirical basis. This approach introduces a new scientific perspective by incorporating environmental dimensions into existing economic development theories.

Key words: development, "green economy", ecology, environment, pollution, global problems.

UOT: 338.43; JEL: Q00; Q10; O13; J43; P48

Türkan Namiq qızı EYUBOVA
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının müəllimi və doktorantı,
E-mail: turkan.ashurova@dia.edu.az
https://doi.org/10.30546/4.71.73001.2026.005.060

İPƏK YOLU KONTEKSTİNDƏ AZƏRBAYCANIN REGİONAL İNTEQRASİYASI VƏ İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycanın İpək Yolu kontekstində regional inteqrasiyasının və iqtisadi inkişaf perspektivlərinin hərtərəfli araşdırılmasından ibarətdir. Bu istiqamətdə ölkənin geostrateji mövqeyinin təsiri, nəqliyyat-logistika dəhlizlərinin inkişafı, enerji siyasətinin rolu və rəqəmsal transformasiya imkanları təhlil edilmişdir.

Tədqiqatın metodologiyası müqayisəli təhlil, statistik göstəricilərin işlənməsi, trend analizləri və tarixi-analitik yanaşmadan ibarətdir. Bu yanaşma mövzunun həm empirik, həm də nəzəri əsasda araşdırılmasına imkan vermişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, aparılmış təhlillər dövlət siyasətinin formalaşdırılmasında, nəqliyyat və enerji layihələrinin prioritetləşdirilməsində, rəqəmsal inkişaf və regional əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsində praktik töhfə verə bilər.

Tədqiqatın nəticələri baxımından Azərbaycanın “Şərq–Qərb” və “Şimal–Cənub” dəhlizlərində yerləşən mövqeyi ölkənin beynəlxalq tranzit imkanlarını genişləndirməklə yanaşı, onun iqtisadi dayanıqlığını gücləndirir, regional ticarəti stimullaşdırır və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə şərait yaradır. Bundan başqa, enerji ixrac marşrutlarının şaxələndirilməsi Azərbaycanın beynəlxalq enerji bazarındakı mövqeyini daha etibarlı edir, rəqəmsal infrastrukturun inkişafı isə ölkənin uzunmüddətli iqtisadi transformasiyasına yeni impuls verir. Əldə olunan nəticələr göstərir ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi gələcək inkişaf üçün əsas dayaqlardan biridir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycanın İpək Yoluna inteqrasiyası yalnız iqtisadi faydalar kontekstində deyil, eyni zamanda regional güc balansı, geosiyasi sabitlik, beynəlxalq əməkdaşlıq və rəqəmsal transformasiya aspektlərində dərinləşdirilmiş şəkildə təhlil edilmişdir. Mövzunun yeni analitik çərçivədə işlənməsi Azərbaycanın innovativ inkişaf modelinə və dayanıqlı iqtisadi strategiyasına dair elmi yanaşmaların formalaşmasına imkan yaratmışdır. Bu, həm də Azərbaycanın gələcək inkişaf prioritetlərinin müəyyənləşdirilməsi baxımından nəzəri və praktik əhəmiyyət kəsb edir.

Açar sözlər: İpək Yolu, regional inteqrasiya, iqtisadi inkişaf, nəqliyyat dəhlizləri, enerji siyasəti, beynəlxalq ticarət, perspektivlər.

Giriş

Qədim İpək Yolu tarixən Şərq ilə Qərb arasında ticarət, mədəniyyət və texnologiyaların ötürülməsində mühüm rol oynamışdır. Azərbaycan bu tarixi yolun əsas qovşaqlarından biri olaraq əsrlər boyu beynəlxalq ticarət və mədəni mübadilənin mərkəzində dayanmışdır. Şamaxı, Təbriz və Bakı kimi şəhərlər qədim dövrlərdə təkcə tranzit məntəqələr deyil, həm də iqtisadi və sosial inkişafın mühüm mərkəzləri kimi formalaşmışdır. Müasir dövrdə isə Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyi ölkəni yenidən Avrasiyanın ən vacib inteqrasiya məkanlarından birinə çevirmişdir.

Qlobal iqtisadi inteqrasiya və regional əməkdaşlıq şəraitində Azərbaycan həm Şərq–Qərb, həm də Şimal–Cənub dəhlizlərinin kəsişməsində yerləşən strateji tranzit ölkə olaraq beynəlxalq maraqların mərkəzinə çıxmışdır. Ölkədə həyata keçirilən Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Cənub Qaz Dəhlizi kimi layihələr Azərbaycanın nəqliyyat, logistika və enerji sektorlarını beynəlxalq sistemə daha sıx bağlamışdır. Bununla yanaşı, rəqəmsallaşma və

innovativ inkişaf meyilləri Azərbaycanın yalnız ənənəvi İpək Yolu deyil, həm də “Rəqəmsal İpək Yolu” layihəsinin mühüm iştirakçısına çevrilməsinə imkan yaratmışdır.

Müasir çağırışlar Azərbaycanın qarşısında yeni imkanlar və eyni zamanda risklər də formalaşdırır. Bir tərəfdən, ölkənin tranzit və enerji potensialı beynəlxalq əməkdaşlığı gücləndirir və iqtisadi dayanıqlığını artırır, digər tərəfdən isə regionda mövcud geosiyasi ziddiyyətlər, enerji marşrutları uğrunda rəqabət və təhlükəsizlik məsələləri balanslaşdırılmış siyasət tələb edir. Buna görə də Azərbaycanın İpək Yoluna inteqrasiyası yalnız iqtisadi imkanlarla deyil, həm də geosiyasi sabitlik, beynəlxalq əməkdaşlıq və dayanıqlı inkişaf modeli ilə sıx bağlıdır.

Məqalənin məqsədi Azərbaycanın İpək Yolu kontekstində regional inteqrasiyasının iqtisadi inkişaf perspektivlərini hərtərəfli təhlil etmək, nəqliyyat-logistika dəhlizləri, enerji siyasəti, rəqəmsal transformasiya və beynəlxalq əməkdaşlıq istiqamətlərində əldə olunan nailiyyətləri qiymətləndirməkdir. Tədqiqat həm tarixi, həm də müasir kontekstdə Azərbaycanın qlobal iqtisadi sistemdə rolunu araşdıraraq, ölkənin strateji mövqeyini, innovativ inkişaf potensialını və gələcək perspektivlərini müəyyənləşdirməyi qarşıya məqsəd qoyur.

Azərbaycanın İpək Yolu Kontekstində Geostrateji Mövqeyi və Regional İnteqrasiyası

Azərbaycan tarixən İpək Yolunun mühüm qovşaqlarından biri olmuşdur. Orta əsrlərdən başlayaraq bu ərazilər Şərqlə Qərbi, Şimal ilə Cənubu birləşdirən karvan yollarının mərkəzində yerləşmişdir. Şamaxı, Təbriz və Bakı kimi şəhərlər beynəlxalq ticarətin və mədəni mübadilənin aparıcı məkanlarına çevrilmiş, Azərbaycan təkcə tranzit ölkə kimi deyil, həm də mədəniyyətlərin, dini təsirlərin və texnologiyaların ötürücüsü rolunu oynamışdır.

Müasir dövrdə də Azərbaycanın geostrateji mövqeyi ölkəni regional inteqrasiyanın mərkəzlərindən birinə çevirmişdir. Ölkə həm Xəzər dənizi vasitəsilə Orta Asiyaya, həm də Türkiyə və Gürcüstan üzərindən Avropaya çıxışı təmin edir. Bununla yanaşı, Rusiya və İranla sərhədləri onun Şimal-Cənub istiqamətində körpü rolunu gücləndirir. Bu xüsusiyyətlər Azərbaycanın həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən strateji tranzit məkan olduğunu göstərir [9, s.24].

Regional inteqrasiya proseslərində Azərbaycanın həyata keçirdiyi iri nəqliyyat və logistika layihələri xüsusi əhəmiyyət kəsb edir. Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycanı birbaşa Türkiyə və Avropa bazarlarına bağlayır, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı isə Xəzər hövzəsi ölkələri ilə yüklərin daşınmasında əsas qovşaqlardan birinə çevrilmişdir. Bundan əlavə, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Azərbaycanın Çindən Avropaya uzanan müasir İpək Yolunun mühüm həlqəsinə çevrilməsinə şərait yaradır.

Enerji resurslarının daşınması da Azərbaycanın regional inteqrasiyasında aparıcı sahədir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, TANAP və TAP layihələri Azərbaycanı Avropanın enerji təhlükəsizliyi baxımından strateji tərəfdaşa çevirmişdir. Bu layihələr sayəsində ölkə yalnız iqtisadi deyil, həm də siyasi nüfuzunu artırmış, regiondakı inteqrasiya proseslərində aparıcı mövqe qazanmışdır [10, s.54].

Bununla belə, Azərbaycanın geostrateji mövqeyi müəyyən çağırışlar da doğurur. Böyük güclərin regiondakı maraqlarının toqquşması, Ermənistanla uzun illər davam edən münaqişə və regional sabitlik problemləri Azərbaycanın qarşısında risklər yaratmaqdadır. Bununla yanaşı, ölkənin tranzit və enerji imkanları bu risklərin kompensasiya olunmasına və regional əməkdaşlığın inkişafına töhfə verir.

Gələcək perspektivlər baxımından Azərbaycanın İpək Yoluna inteqrasiyası yalnız nəqliyyat və enerji sahələrində deyil, həm də rəqəmsal texnologiyaların tətbiqi, yaşıl enerji layihələri və regional əməkdaşlığın yeni istiqamətləri ilə daha da dərinləşəcəkdir. Bu isə Azərbaycanın geostrateji rolunu möhkəmləndirməklə yanaşı, onun iqtisadi inkişaf perspektivlərinə də mühüm töhfə verəcəkdir [11].

Nəqliyyat-Logistika Dəhlizləri, Enerji Siyasəti və İqtisadi İmkanlar

Azərbaycanın beynəlxalq iqtisadi sistemdə mövqeyinin möhkəmlənməsində nəqliyyat-logistika dəhlizləri və enerji siyasəti həlledici rol oynayır. Coğrafi mövqeyinə görə ölkə həm Şərq–Qərb,

həm də Şimal-Cənub istiqamətində mühüm tranzit qovşağı funksiyasını yerinə yetirir və bu xüsusiyyət Azərbaycanı Avrasiya məkanında iqtisadi və geosiyasi tarazlıq baxımından əsas aktorlardan birinə çevirir.

Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin inkişafı bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Şərq-Qərb marşrutu, həm də “Orta Dəhliz” adlandırılan yol, Çindən başlayaraq Mərkəzi Asiya və Xəzər dənizi vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanır. Azərbaycan bu marşrutun mərkəzi həlqəsini təşkil etməklə Avropa və Asiya arasında mühüm körpü rolunu oynayır. Digər tərəfdən, Şimal-Cənub dəhlizi Hindistan və İranı Azərbaycan üzərindən Rusiya və Avropaya birləşdirərək yükdaşımaların məsafəsini və vaxtını xeyli azaldır. Bu dəhlizlər Azərbaycanın tranzit imkanlarını genişləndirir, logistika sahəsinin modernləşməsinə təkan verir və regiondaxili əməkdaşlıq üçün yeni imkanlar açır [6].

Son illərdə ölkədə nəqliyyat infrastrukturunun gücləndirilməsi məqsədilə mühüm layihələr həyata keçirilmişdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (Ələt limanı) Xəzər dənizində ən iri logistik mərkəzlərdən birinə çevrilmişdir. Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycanı birbaşa Türkiyə və Avropa bazarlarına çıxışla təmin edir, yeni avtomobil yolları və hava limanları isə ölkənin tranzit şəbəkəsini daha da inkişaf etdirir. Bu layihələr Azərbaycanın beynəlxalq ticarətdə etibarlı tərəfdaş kimi mövqeyini gücləndirir və iqtisadi imkanlarını artırır.

Enerji siyasəti Azərbaycanın iqtisadiyyatında əsas hərəkətverici amillərdən biridir. Ölkənin zəngin neft və qaz ehtiyatları müasir ixrac marşrutları vasitəsilə dünya bazarlarına çıxarılır. Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycan neftini Aralıq dənizi vasitəsilə beynəlxalq bazarlara çatdırır. Cənub Qaz Dəhlizi, o cümlədən TANAP və TAP layihələri, Azərbaycan qazının Avropaya ixracını təmin edir və Avropanın enerji təhlükəsizliyində strateji rol oynayır. Bakı–Supsa və Bakı–Novorossiysk kəmərləri də regionun enerji inteqrasiyasını gücləndirən mühüm marşrutlardır. Bu layihələr Azərbaycanın iqtisadiyyatına valyuta axınını təmin etməklə yanaşı, ölkəni beynəlxalq enerji əməkdaşlığında etibarlı tərəfdaşa çevirmişdir.

Nəqliyyat və enerji layihələrinin sinerjisi Azərbaycanın iqtisadi imkanlarını xeyli genişləndirir. Tranzit ölkə statusu yeni gəlir mənbələri formalaşdırır, xarici investisiyaların cəlbi sürətlənir və regional əməkdaşlıq dərinləşir. Bundan əlavə, Xəzər dənizində külək enerjisi layihələrinin inkişafı Azərbaycanın enerji siyasətində yeni istiqamət açır və ölkənin gələcəkdə “yaşıl enerji ixracatçısı” kimi beynəlxalq bazarda mövqeyini gücləndirə bilər.

Azərbaycanın tranzit potensialı son illərdə statistik göstəricilərdə də öz əksini tapmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ildə ölkə ərazisindən daşınan yüklərin ümumi həcmi 52,2 milyon ton təşkil etmiş, bunun təxminən 27 faizi beynəlxalq tranzit yüklərinin payına düşmüşdür. Bu fakt Azərbaycanın regional və qlobal nəqliyyat sistemində mühüm tranzit ölkə kimi mövqeyini daha da möhkəmləndirdiyini göstərir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (Ələt limanı) fəaliyyətində də nəzərəçarpan artım müşahidə olunmuşdur. 2023-cü ildə burada 7,3 milyon ton yük dövriyyəsi qeydə alınmış, bu da əvvəlki illə müqayisədə 14 faizlik artım deməkdir [7, s.45].

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın Şərq-Qərb dəhlizində mövqeyini daha da gücləndirmişdir. Azərbaycan Dəmir Yollarının hesabatına əsasən, 2024-cü ilin ilk yarısında bu dəmir yolu vasitəsilə daşınan yüklərin həcmi əvvəlki dövrlə müqayisədə 37 faiz artmışdır. Bu artım Azərbaycanın yalnız regional deyil, həm də Avropa-Asiya ticarətində strateji tranzit ölkə kimi əhəmiyyətini bir daha təsdiq edir.

Enerji ixracı sahəsində də əhəmiyyətli nəticələr əldə edilmişdir. Energetika Nazirliyinin məlumatına görə, 2023-cü ildə Azərbaycan Avropa bazarına 12,8 milyard kubmetr təbii qaz ixrac etmiş, 2027-ci ilə qədər bu həcmin 20 milyard kubmetrə çatdırılması planlaşdırılmışdır. Bu göstərici Azərbaycanın Avropa enerji təhlükəsizliyində artan rolunu nümayiş etdirir.

Bundan əlavə, ölkənin bərpa olunan enerji potensialı da geniş imkanlar açır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 9,2 min MVt gücündə bərpa olunan enerji resursları mövcuddur. Xəzər dənizində isə külək enerjisi potensialı təqribən 157 GVt olaraq qiymətləndirilir. Bu faktlar

Azərbaycanın enerji siyasətində “yaşıl enerji” istiqamətinin gələcəkdə strateji prioritetə çevriləcəyini göstərir.

Beləliklə, təqdim edilən statistik göstəricilər Azərbaycanın nəqliyyat-logistika dəhlizlərində və enerji siyasətində qazandığı nailiyyətləri əks etdirməklə yanaşı, ölkənin iqtisadi inkişaf perspektivlərinin də real əsaslara söykəndiyini ortaya qoyur [4].

Beləliklə, Azərbaycanın nəqliyyat-logistika dəhlizləri və enerji siyasəti onun iqtisadi inkişafını təmin edən və regional mövqeyini möhkəmləndirən əsas sütunlardan birinə çevrilmişdir. Bu sahələrdə həyata keçirilən strateji layihələr yalnız iqtisadi səmərə gətirmir, həm də ölkənin beynəlxalq sistemdə artan rolunu nümayiş etdirir. Azərbaycanın coğrafi üstünlükləri və strateji təşəbbüsləri onu müasir İpək Yolunun ayrılmaz həlqəsinə çevirmişdir.

Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasında nəqliyyat-logistika dəhlizləri və enerji siyasəti həlledici rol oynayır. Ölkənin əlverişli coğrafi mövqeyi ona həm Şərq–Qərb, həm də Şimal–Cənub istiqamətlərində strateji tranzit qovşağı olmaq imkanı verir. Bu xüsusiyyət Azərbaycanı Avrasiya məkanının iqtisadi və geosiyasi tarazlığında mühüm oyunçuya çevirir.

“Orta Dəhliz” adlandırılan Şərq–Qərb marşrutu Çindən başlayaraq Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya qədər uzanır. Azərbaycan bu marşrutun mərkəzində dayanaraq, Avropa ilə Asiya arasında etibarlı tranzit körpü funksiyasını yerinə yetirir. Orta Dəhlizin üstünlüyü ondan ibarətdir ki, Çindən Avropaya yük daşınması üçün vaxt 30–35 gündən 12–15 günə qədər azalır. Bu isə Azərbaycanın tranzit potensialının beynəlxalq ticarət üçün strateji əhəmiyyətini artırır.

Şimal–Cənub dəhlizi də Azərbaycan üçün mühüm prioritetlərdəndir. Bu marşrut Hindistan, İran və Azərbaycan vasitəsilə Rusiyaya və Şimali Avropaya çıxışı təmin edir. Hazırda dəhliz üzrə illik daşınma həcmləri 15 milyon ton səviyyəsində qiymətləndirilsə də, infrastrukturun tam modernləşdirilməsindən sonra bu rəqəmin 40–50 milyon tona çatacağı proqnozlaşdırılır. Azərbaycan bu dəhlizin inkişafında əsas həlqə olmaqla tranzit gəlirlərini artırır və regional əməkdaşlığı gücləndirir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (Ələt limanı) bu dəhlizlərin mərkəzi qovşağına çevrilmişdir. 2023-cü ildə limanda 7,3 milyon ton yük dövriyyəsi qeydə alınmış və bu göstərici əvvəlki illə müqayisədə 14 faiz artım təşkil etmişdir. Bakı–Tbilisi–Qars dəmir yolu isə Azərbaycanı birbaşa Türkiyə və Avropa bazarlarına çıxararaq tranzit imkanlarını daha da genişləndirmişdir. 2024-cü ilin ilk yarısında bu dəmir yolu vasitəsilə daşınan yüklərin həcmi əvvəlki dövrə nisbətən 37 faiz artmışdır.

Enerji siyasəti Azərbaycanın iqtisadi inkişafında aparıcı rol oynayır. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Cənub Qaz Dəhlizi layihələri Azərbaycanı Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevirmişdir. Təkcə 2023-cü ildə Azərbaycan Avropaya 12,8 milyard kubmetr qaz ixrac etmiş, 2027-ci ilə qədər bu həcmin 20 milyard kubmetrə çatdırılması planlaşdırılır. Bu, Azərbaycanın enerji ixracında dayanıqlılığı təmin etməklə yanaşı, Avropa ölkələrinin enerji asılılığını da azaldır.

Son illərdə Azərbaycanın bərpa olunan enerji sahəsində atdığı addımlar da diqqətəlayiqdir. Qarabağ və Şərqi Zəngəzurda potensialı 9,2 min MVt olan yaşıl enerji layihələrinin həyata keçirilməsi, Xəzər dənizində külək enerjisi üzrə 157 GVt potensialın qiymətləndirilməsi ölkənin enerji siyasətinə yeni istiqamət qazandırır. Beləliklə, Azərbaycan yalnız ənənəvi enerji ixracatçısı deyil, həm də gələcəkdə yaşıl enerji bazarının mühüm iştirakçısı ola bilər.

Rəqəmsal İpək Yolu və Azərbaycanın İnnovativ İnkişaf Strategiyası

Müasir dövrdə dünya iqtisadiyyatının əsas hərəkətverici qüvvələrindən biri informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafıdır. Əgər tarixi İpək Yolu əsrlər boyu karvan yolları vasitəsilə ipək, ədviyyat və digər malların daşınmasına xidmət etmişdisə, bu gün yeni bir İpək Yolu – Rəqəmsal İpək Yolu formalaşmaqdadır. Bu anlayış transmilli elektron ticarət şəbəkələrinin, yüksək sürətli internet xətlərinin, rəqəmsal platformaların, süni intellekt və böyük verilənlər texnologiyalarının beynəlxalq iqtisadi əlaqələrə inteqrasiyasını əhatə edir. Qlobal miqyasda

Çinin “Bir Kəmər, Bir Yol” təşəbbüsünün mühüm komponentlərindən biri kimi təqdim olunan Rəqəmsal İpək Yolu Asiyadan Avropaya qədər uzanan rəqəmsal dəhlizlərin yaradılmasını, beynəlxalq iqtisadi münasibətlərdə rəqəmsallaşmanın aparıcı rol oynamasını hədəfləyir. Azərbaycanın bu prosesdə iştirakı həm coğrafi mövqeyindən, həm də milli inkişaf strategiyasından irəli gəlir.

Azərbaycan son illərdə rəqəmsal infrastruktura böyük həcmdə sərmayələr yatıraraq regional rəqəmsal qovşaq rolunu möhkəmləndirməyə başlamışdır. Fiber-optik şəbəkələrin genişləndirilməsi, 5G texnologiyasına keçid planlarının hazırlanması, dövlət xidmətlərinin rəqəmsallaşdırılması və elektron hökumət platformalarının qurulması bu istiqamətdə atılan mühüm addımlardır. “ASAN xidmət” modeli və “myGov” platforması kimi layihələr Azərbaycanın rəqəmsallaşma təcrübəsinin uğurlu nümunələri hesab olunur. Xüsusilə Azərbaycan, Qazaxıstan və Gürcüstan arasında həyata keçirilən və Xəzər dənizinin dibi ilə fiber-optik internet xətlərinin çəkilməsini nəzərdə tutan Rəqəmsal İpək Yolu layihəsi regionun informasiya mübadiləsində sürəti artırmaqla yanaşı, həm də şəbəkə təhlükəsizliyi və dayanıqlılığını təmin edəcəkdir. Bu təşəbbüs Azərbaycanın yalnız nəqliyyat körpüsü deyil, həm də “rəqəmsal körpü” funksiyasını yerinə yetirməsinə şərait yaradır [8].

Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ətrafında yaradılan Azad İqtisadi Zona da rəqəmsal texnologiyaların tətbiqi üçün geniş imkanlar açır. Burada ağıllı logistika, elektron gömrük və blokçeyn əsaslı həllərin tətbiqi nəzərdə tutulur ki, bu da həm tranzit, həm də beynəlxalq ticarətdə səmərəliliyi artırır. Azərbaycanın innovativ inkişaf strategiyası çərçivəsində rəqəmsal iqtisadiyyat prioritet istiqamət kimi müəyyən edilmişdir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində rəqəmsal iqtisadiyyatın inkişafı, startap ekosisteminin gücləndirilməsi, innovasiyaların təşviqi və rəqəmsal biliklərin artırılması xüsusi vurğulanır.

Azərbaycanın innovativ inkişaf yanaşması iqtisadiyyatın rəqəmsallaşdırılması ilə məhdudlaşmır. Burada həmçinin İKT sektorunun gücləndirilməsi, texnoparkların genişləndirilməsi, innovativ sahibkarlığın dəstəklənməsi və beynəlxalq əməkdaşlıq mexanizmlərinin yaradılması kimi istiqamətlər də ön plana çıxır. Bu strategiya Azərbaycanın yalnız tranzit ölkə yox, həm də regional rəqəmsal mərkəzə çevrilməsi üçün möhkəm baza formalaşdırır.

Rəqəmsal İpək Yoluna inteqrasiya Azərbaycanın iqtisadiyyatına çoxşaxəli təsir göstərir. Elektron ticarət imkanlarının genişlənməsi kiçik və orta sahibkarlıq üçün yeni bazarlara çıxış yaradır. İnformasiya texnologiyalarının tətbiqi istehsalın səmərəliliyini artırır, dövlət xidmətlərinin şəffaflığını təmin edir və iqtisadi idarəetmədə çevikliyi yüksəldir. Bununla yanaşı, rəqəmsallaşma enerji sektoru ilə sinerji yaradaraq ölkənin yeni inkişaf imkanlarını genişləndirir. Xəzər dənizində həyata keçirilən külək enerjisi layihələri rəqəmsal idarəetmə sistemləri vasitəsilə nəzarət olunur, ağıllı enerji şəbəkələri isə ixrac prosesində səmərəliliyi artırır. Bu, Azərbaycanın həm yaşıl enerji, həm də rəqəmsal iqtisadiyyat sahəsində paralel inkişafını təmin edir.

Bununla belə, Rəqəmsal İpək Yoluna qoşulma bir sıra çağırışlarla da müşayiət olunur. Kibertəhlükəsizlik məsələləri, rəqəmsal bərabərsizliyin aradan qaldırılması və texnoloji asılılıq riskləri xüsusi diqqət tələb edir. Azərbaycanın bu çağırışlara cavab vermək üçün milli kadr potensialını gücləndirməsi, kibertəhlükəsizlik sistemlərini inkişaf etdirməsi və beynəlxalq tərəfdaşlarla əməkdaşlığı dərinləşdirməsi zəruridir [5].

Gələcək perspektivlər baxımından Azərbaycanın Rəqəmsal İpək Yolunda daha aktiv rol oynaması gözlənilir. Bu, ölkənin yalnız tranzit mərkəzi deyil, həm də innovasiya və texnologiya ixrac edən regional liderə çevrilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Rəqəmsal İpək Yolu Azərbaycanın geostrateji mövqeyini gücləndirməklə yanaşı, rəqəmsal iqtisadiyyatın inkişafına, innovativ sahibkarlığın təşviqinə və beynəlxalq əməkdaşlığın dərinləşməsinə geniş imkanlar açır.

Beynəlxalq Əməkdaşlıq, Geosiyasi Çağırışlar və Azərbaycanın Dayanıqlı İqtisadi Modeli

Azərbaycanın İpək Yolu kontekstində regional inteqrasiyası təkcə nəqliyyat və enerji sahələri ilə məhdudlaşmır, həm də beynəlxalq əməkdaşlıq çərçivəsində yeni imkanların formalaşmasına xidmət edir. Azərbaycan “Bir Kəmər, Bir Yol” təşəbbüsü, Avropa İttifaqı ilə tərəfdaşlıq sazişləri, Türkdilli Dövlətlər Təşkilatı, GUAM və digər regional qurumlarla əməkdaşlığı gücləndirməklə,

öz geostrateji mövqeyindən maksimum səmərə əldə etməyə çalışır. Xüsusilə Türkiyə, Gürcüstan və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq nəqliyyat-logistika dəhlizlərinin dayanıqlı inkişafına, Avropa ölkələri ilə enerji tərəfdaşlığı isə Azərbaycanın beynəlxalq nüfuzunun artmasına xidmət edir [1, s.54].

Bununla belə, Azərbaycanın geosiyasi mövqeyi bir sıra çağırışlarla da müşayiət olunur. Böyük güclərin regiondakı maraqları, Qafqazda təhlükəsizlik məsələləri, Ermənistanla bağlı həll olunmuş, lakin hələ də müəyyən risklər yaradan münaqişə təcrübəsi, həmçinin enerji marşrutları uğrunda beynəlxalq rəqabət Azərbaycanın regional siyasətində mürəkkəb şərtlər formalaşdırır. Buna baxmayaraq, Azərbaycan balanslaşdırılmış xarici siyasət və çoxşaxəli əməkdaşlıq prinsipləri sayəsində bu riskləri minimuma endirməyə çalışır.

Dayanıqlı iqtisadi modelin qurulması Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas məqsədlərindən biridir. Bu model iqtisadiyyatın şaxələndirilməsini, enerji resurslarından asılılığın azaldılmasını, bərpa olunan enerji və rəqəmsal iqtisadiyyatın inkişafını, həmçinin regional əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutur. Qarabağ və Şərqi Zəngəzurda yaradılan yaşıl enerji zonaları, Xəzər dənizində külək enerjisi layihələri və rəqəmsal iqtisadiyyatın inkişafına yönəlmiş dövlət proqramları Azərbaycanın dayanıqlı iqtisadiyyat konsepsiyasını gücləndirən əsas amillərdir.

Azərbaycan həm də beynəlxalq maliyyə institutları, Dünya Bankı, Asiya İnkişaf Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı kimi qurumlarla əməkdaşlıq edərək infrastruktur və enerji layihələrinin maliyyələşdirilməsini təmin edir. Bu əməkdaşlıq ölkənin iqtisadi sabitliyinə, sosial rifahın yaxşılaşdırılmasına və beynəlxalq sistemdə mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verir [3, s.45].

Nəticə etibarilə, Azərbaycan beynəlxalq əməkdaşlığı gücləndirməklə yanaşı, geosiyasi çağırışlara uyğun şəkildə iqtisadiyyatını şaxələndirmək və dayanıqlı inkişaf modelini formalaşdırmaq istiqamətində ardıcıl siyasət həyata keçirir. Bu, ölkənin müasir İpək Yolu kontekstində yalnız tranzit və enerji mərkəzi deyil, həm də regional sabitlik, iqtisadi dayanıqlıq və innovativ inkişaf nümunəsi kimi çıxış etməsini təmin edir.

Mədəni və Humanitar Əməkdaşlıq Kontekstində Azərbaycanın İpək Yolundakı rolu

Qədim İpək Yolu yalnız ticarət və iqtisadi inteqrasiyanı deyil, həm də mədəniyyətlərarası ünsiyyəti, biliklərin, ideyaların və sivilizasiya dəyərlərinin ötürülməsini təmin etmişdir. Bu baxımdan Azərbaycan əsrlər boyu Şərq və Qərb arasında mədəni körpü rolunu oynamış, müxtəlif xalqların və dinlərin qovuşduğu məkan kimi çıxış etmişdir. Müasir dövrdə də Azərbaycanın İpək Yolu kontekstində rolu təkcə iqtisadi və tranzit imkanları ilə məhdudlaşmır, həm də mədəni və humanitar əməkdaşlığın inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın multikulturalizm siyasəti və mədəniyyətlərarası dialoqu təşviq edən beynəlxalq təşəbbüsləri bu istiqamətdə xüsusi qeyd olunmalıdır. “Bakı Prosesi” adı ilə tanınan təşəbbüs BMT, UNESCO və digər beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirilərək, Qərb və Şərq mədəniyyətləri arasında dialoqun inkişafına mühüm töhfə vermişdir. Bakıda keçirilən Mədəniyyətlərarası Dialoq Forumları Azərbaycanın bu sahədə beynəlxalq nüfuzunu artırmış, ölkəni mədəni əməkdaşlığın aparıcı mərkəzlərindən birinə çevirmişdir.

İpək Yolu üzərində yerləşən Azərbaycan həm də turizm sahəsində geniş potensiala malikdir. Tarixi İpək Yolu marşrutları üzərində yerləşən Şəki, Gəncə, Şamaxı və Bakı şəhərləri mədəni irsi ilə seçilərək UNESCO-nun dünya irsi siyahısına daxil edilmişdir. Turizmin inkişafı təkcə iqtisadi gəlirlə deyil, həm də xalqlar arasında qarşılıqlı anlaşmanın və mədəniyyətlərarası inteqrasiyanın dərinləşməsi ilə nəticələnir. Bu baxımdan Azərbaycan “İpək Yolu turizm marşrutları” layihəsində fəal iştirak etməklə özünün humanitar əməkdaşlıq sahəsində rolunu daha da gücləndirir.

Bundan başqa, Azərbaycanın beynəlxalq humanitar forumlara ev sahibliyi etməsi də mədəni əməkdaşlığın təşviqi baxımından mühüm əhəmiyyət daşıyır. Bakı Humanitar Forumu, Baku Energy Week kimi tədbirlər müxtəlif sahələrdə beynəlxalq əməkdaşlığı gücləndirməklə yanaşı, ölkənin qlobal miqyasda imicini formalaşdırır. Bu tədbirlər çərçivəsində Azərbaycanın sülh, əməkdaşlıq və tolerantlıq dəyərləri dünya ictimaiyyətinə təqdim olunur [2, 96].

Mədəni və humanitar əməkdaşlıq Azərbaycanın yumşaq güc siyasətinin mühüm komponenti kimi çıxış edir. Bu istiqamətdə atılan addımlar ölkənin geosiyasi və iqtisadi təşəbbüslərini tamamlayaraq, regional inteqrasiyanı gücləndirir və beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu artırır. Beləliklə, Azərbaycan müasir İpək Yolunda yalnız tranzit və enerji qovşağı deyil, həm də mədəniyyətlərin qovuşduğu və əməkdaşlığın təşviq olunduğu bir mərkəz kimi çıxış edir.

Nəticə

Azərbaycanın İpək Yolu kontekstində regional inteqrasiyası ölkənin həm tarixi irsi, həm də müasir geostrateji mövqeyi ilə bağlıdır. Tədqiqat göstərdi ki, Azərbaycanın tranzit potensialı və nəqliyyat-logistika dəhlizlərindəki rolu ölkəni Avrasiya məkanında mühüm iqtisadi mərkəzə çevirir. Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin inkişafı yalnız yükdaşımaların səmərəliliyini artırmır, həm də ölkənin iqtisadi dayanıqlığını gücləndirir və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirir.

Enerji siyasəti sahəsində aparılan təhlillər sübut edir ki, Azərbaycanın neft-qaz ehtiyatlarının ixrac marşrutları ölkənin iqtisadiyyatına valyuta axınını təmin etməklə yanaşı, onun Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş statusunu möhkəmləndirmişdir. Eyni zamanda, bərpa olunan enerji layihələrinin inkişafı Azərbaycanın gələcəkdə yaşıl iqtisadiyyat modelinə keçidini təmin edə biləcək mühüm amillərdən biri kimi qiymətləndirilməlidir.

Rəqəmsal İpək Yolu və innovativ inkişaf sahəsində aparılan islahatlar Azərbaycanın yalnız tranzit ölkə deyil, həm də regional rəqəmsal qovşaq kimi formalaşmasına xidmət edir. Rəqəmsallaşma prosesləri dövlət idarəçiliyinin səmərəliliyini artırır, sahibkarlıq fəaliyyətini stimullaşdırır və beynəlxalq rəqabət qabiliyyətini yüksəldir.

Geosiyasi çağırışlar fonunda Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət, beynəlxalq təşkilatlarla əməkdaşlıq və humanitar diplomatiya ölkənin regional sabitlik və əməkdaşlıq mərkəzi kimi mövqeyini gücləndirir. Mədəni və humanitar əməkdaşlıq təşəbbüsləri, xüsusilə Bakı Prosesi və Mədəniyyətlərarası Dialoq Forumları, Azərbaycanın yumşaq güc siyasətinin uğurlu nümunəsi kimi çıxış edir.

